Təhsil millətin gələcəyidir!

Heydər Əliyev

AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

21 noyabr 2026-cı il №43 (9196) www.muallim.edu.az muallim@media.edu.az

AZƏRBAYCANLA VYETNAM ARASINDA ELM VƏ TƏHSİL ƏMƏKDAŞLIĞI DİNAMİK ŞƏKİLDƏ İNKİŞAF EDİR

"Sevindirici haldır ki, bu akademik əlaqələr zəngin tarixi ənənələrə əsaslanır: hətta sovet dövründə belə, təxminən 5 min Vyetnam vətəndaşı Azərbaycanda təhsil alıb və sonradan əldə etdikləri bilik və təcrübəni vətənlərinin rifahı naminə uğurla tətbiq edib"



Humanitar əməkdaşlıq xalqlarımızı və dövlətlərimizi birləşdirən möhkəm körpü rolunu oynayır. Onilliklər ərzində bu əlaqələr təhsil təşəbbüsləri, xeyriyyə layihələri və müntəzəm mədəni mübadilə vasitəsilə davamlı olaraq möhkəmləndirilib. Heydər Əliyev Fondu bu prosesdə xüsusi rola malikdir və Vyetnamla humanitar münasibətlərin dərinləşməsinə fəal surətdə kömək edir. Fondun fəaliyyət istiqamətləri Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla infrastruktur təşəbbüslərindən tutmuş müxtəlif təhsil proqramlarının dəstəklənməsinə qədər geniş spektri əhatə edir. Fondun vitse-prezidenti Leyla Əliyevanın 2025-ci ildə Vyetnama səfəri bu əlaqələrin möhkəmləndirilməsində mühüm addım olub. Səfər zamanı ölkə rəhbərləri, yaradıcı ziyalıların nümayəndələri və Azərbaycan universitetlərinin vyetnamlı məzunları ilə görüşlər keçirilib. Hanoy Ticarət və Turizm Kollecinə də maliyyə dəstəyi göstərilib. Xeyriyyəçiliklə yanaşı, elm və təhsil əməkdaşlığı da dinamik şəkildə inkişaf edir. Hər iki ölkənin aparıcı universitetləri bir sıra tərəfdaşlıq müqavilələri və memorandumlar imzalayıb. Vyetnam nümayəndələri Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün mənim sərəncamıma uyğun olaraq yaradılmış təhsil qrant proqramlarında iştirak etmək imkanına malikdirlər. Sevindirici haldır ki, bu akademik əlaqələr zəngin tarixi ənənələrə əsaslanır: hətta sovet dövründə belə, təxminən 5 min Vyetnam vətəndaşı Azərbaycanda təhsil alıb və sonradan əldə etdikləri bilik və təcrübəni vətənlərinin rifahı naminə uğurla tətbiq edib. İki ölkə arasında uzunmüddətli dostluğun rəmzi 2025-ci ildə Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın iştirakı ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ho Şi Minin Memorial otağının açılışı olub. Həmin açılış bu görkəmli dövlət xadiminin anadan olmasının 135-ci ildönümünə təsadüf edib. Qarşılıqlı mədəni fəaliyyət təhsil əlaqələrini ahəngdar şəkildə tamamlayır.

Prezident İlham Əliyevin Vyetnam Xəbər Agentliyinə müsahibəsindən



Prezident İlham Əliyev sərəncamlar imzalayıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 noyabr 2026-cı il tarixli Sərəncamı ilə E.S.Babayev Bakı Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilib. Dövlət başçısının digər sərəncamları ilə M.M.Abbaszadə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilərək Bakı Dövlət Universitetinin rektoru vəzifəsinə təyin olunub.

"Yüksəliş" müsabiqəsinin keçirilməsi üçün 1 milyon manat ayrılıb

2027-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün 1 milyon manat vəsait ayrılıb. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, vəsait Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Gənclər və İdman Nazirliyinə ayrılacaq.

Maliyyə Nazirliyinə müvafiq maliyyələşməni təmin etmək tapşırılıb.

Bundan əlavə, "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında Prezidentin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi yeni Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

DP məzunları dövlət qulluğuna müsabiqəsiz təyin ediləcəklər



Prezident İlham Əliyev Dövlət Qulluğu Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Azərbaycan Respublikasının Qanununu təsdiqləyib.

Edilən dəyişikliklərə əsasən, dövlət proqramı çərçivəsində xaricdə təhsil almış şəxs müsabiqədə iştirak etmədən bir dəfə dövlət qulluğu vəzifəsinə təyin edilə bilər.

Bunun üçün həmin şəxs dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanına müraciət edərək, tələb olunan sənədləri təqdim etməlidir. Sənədlər təqdim edildikdən sonra həmin şəxs 5 (beş) iş günü müddətində dövlət orqanının rəhbərinə təqdim olunur. Dövlət orqanının rəhbəri həmin şəxsi vakant dövlət qulluğu vəzifəsinə təyin etməlidir.

Dövlət proqramı çərçivəsində xaricdə təhsil almış şəxslər "Dövlət qulluğu sertifikatı" tələb edilmədən müsabiqənin müsahibə mərhələsində iştirak edə bilərlər.

"HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİXİ"



Noyabrın 20-də Heydər Əliyev Mərkəzində ali təhsil müəssisələrinin tələbələri arasında "Heydər Əliyev və Azərbaycan tarixi" X ümumrespublika bilik yarışı keçirilib

Bax səh.2

Beynəlxalq əmək bazarının tələblərinə cavab verən kadr hazırlığına diqqət yetirməliyik



2019-cu ildən başlayaraq artıq peşə hazırlığında adambaşına maliyyələşmə mexanizminə keçid edilib. Bu, bizə özəl sektorla əməkdaşlıq etmək üçün çox geniş imkanlar yaradıb

Bax səh.3

I Azərbaycan-Gürcüstan Rektorlar Konfransı keçirilib

Bax səh.4

Fərdin şəxsiyyət kimi inkişafının sirri

Bax səh.6

Sabahın mütəxəssisi bir universitet ixtisasına sığacaqmı?

Bax səh.7

Bilik, təşəbbüs və Azərbaycan sevgisi

Bax səh.7

“HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TARİXİ”





X ümumrespublika bilik yarışının qalibləri mükafatlandırılıblar



Noyabrın 20-də Heydər Əliyev Mərkəzində ali təhsil müəssisələrinin tələbələri arasında “Heydər Əliyev və Azərbaycan tarixi” X ümumrespublika bilik yarışı keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə keçirilən yarış Azərbaycan tarixinin və Ümummilli Lider Heydər Əliyevin irsinin tədqiqi, öyrənilməsi və təbliği məqsədi daşıyır.

Builki bilik yarışında respublikanın 50 ali təhsil müəssisəsini təmsil edən komandalar iştirak edib. Qarabağ Universiteti və Türkiyə-Azərbaycan Universitetinin komandaları isə layihəyə ilk dəfə qoşulublar.

Yarış zamanı komandalara hər suala cavab vermək və müzakirə aparmaq üçün 60 saniyə vaxt ayrılıb. İştirakçıların cavabları Heydər Əliyev Mərkəzi, Təhsilin İnkişafı Fondu və AMEA-nın Tarix və Etnologiya İnstitutunun nümayəndələrindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Bilik yarışının nəticələrinə əsasən, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandası birinci, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının komandası ikinci, Bakı Dövlət Universitetinin komandası isə üçüncü yeri tutub.

Mükafatlandırma mərasimində qaliblərə sertifikatları Alyona Əliyeva və elm və təhsil nazirinin müavini Firudin Qurbanov təqdim ediblər.

Yarışın qalibi olan Polis Akademiyasının komandasının üzvü, IV kurs kursantı Ramazan Əliyev təəssüratını bölüşərkən komanda olaraq ikinci turda mövqeyimizi ortaya qoymağı bacardıq. Suallar arasında asan, orta və yüksək çətinlik dərəcəli olanlar var idi. Düşünürəm ki, komandamız onların öhdəsindən uğurla gəldi. Komandamla və Polis Akademiyasının təmsilçisi olmağımla fəxr edirəm”.

Bilik yarışında ilk dəfə iştirak edən Qarabağ Universitetinin tarix ixtisası üzrə III kurs tələbəsi Emil Quliyev universitetini bu layihədə təmsil etməyin onun üçün qürurverici olduğunu deyib: “Qarabağ Universiteti olaraq bu mötəbər yarışda ilk dəfə iştirak etmək və universitetimizi təmsil etmək bizim üçün çox qürurvericidir. Bəzi suallarda çətinlik yaşasaq da, yaxşı nəticə əldə etməyə çalışdıq”.

Qeyd edək ki, 2014-cü ildən təşkil olunan layihə gənclərin Azərbaycan tarixi və Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında biliklərinin zənginləşdirilməsinə, vətənpərvərlik ruhunun və sağlam rəqabət ənənələrinin gücləndirilməsinə xidmət edir.



HƏŞTƏRXANDA ÜMUMMİLLİ LİDERİN ADINI DAŞIYAN MƏKTƏBİN 15 İLLİYİ QEYD OLUNUB

2011-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycan dövlətinin dəstəyi ilə əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilən məktəb iki xalq arasında dostluq və qarşılıqlı anlaşmanın rəmzinə çevrilib



Rusiyanın Həştərxan vilayətində 11 saylı tam orta ümumtəhsil məktəbinin əsaslı yenidən qurulmasının və təhsil müəssisəsinə Ümummilli Lider Heydər Əliyevin adının verilməsinin 15 illiyinə həsr olunmuş tədbirlər keçirilib. Tədbirlərdə Azərbaycan nümayəndə heyətinin tərkibində elm və təhsil nazirinin müavini İdris İsayev, Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Milli Məclisin deputatları Rizvan Nəbiyev və Zaur Şükürov, YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev iştirak ediblər. Tədbirlər çərçivəsində Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri, ölkəmizin yenidən qurulması və hərtərəfli inkişafı istiqamətində həyata keçirdiyi tarixi missiya, eləcə də Azərbaycan-Rusiya münasibətlərinin formalaşması və inkişafındakı mühüm rolu barədə ətraflı bəhs olunub.



Noyabrın 11-də Azərbaycan nümayəndə heyəti, Həştərxan Hökumətinin sədri Denis Afanasyevin rəhbərliyi ilə vilayətin rəsmi şəxsləri və Azərbaycan diasporunun nümayəndələri Həştərxan şəhərində Ümummilli Lider Heydər Əliyevin adını daşıyan xiyabanı ziyarət ediblər. Xiyabanda ucaldılmış abidə önünə gül dəstələri qoyularaq Ulu Öndərin xatirəsi dərin ehtiramla yad edilib. Daha sonra nümayəndə heyəti İkinci Dünya müharibəsində həlak olanların xatirəsinə həsr edilmiş “Qardaşlıq məzarlığı”nı ziyarət edib, əbədi məşəl abidəsi önünə gül dəstələri qoyub.

Həmin gün Azərbaycan nümayəndə heyətinin Həştərxan Hökumətinin sədri Denis Afanasyevlə rəsmi görüşü keçirilib. Görüşdə Azərbaycan ilə Həştərxan vilayəti arasında əlaqələrin inkişaf perspektivləri, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və humanitar sahədə birgə fəaliyyətin gücləndirilməsi məsələləri müzakirə olunub. Tərəflər Ümummilli Lider Heydər Əliyevin iki xalq arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsindəki tarixi xidmətlərini vurğulayaraq bu irsin gələcək nəsillərə çatdırılmasının əhəmiyyətini qeyd ediblər.

Noyabrın 12-də Azərbaycan nümayəndə heyəti Heydər Əliyev adına 11 saylı tam orta ümumtəhsil məktəbini ziyarət edib. Əvvəlcə məktəbin foyesində Ulu Öndərin büstü önünə gül dəstələri qoyulub, xatirəsi ehtiramla yad edilib. Daha sonra məktəbin əsaslı yenidən qurulmasının və təhsil müəssisəsinə Ümummilli Liderin adının verilməsinin 15 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev Ümummilli Lider Heydər Əliyevin təhsilə, elmə və gənc nəslin yetişdirilməsinə daim xüsusi önəm verdiyini qeyd edib. Bildirib ki, 2011-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycan dövlətinin dəstəyi ilə əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilən məktəb iki xalq arasında dostluq və qarşılıqlı anlaşmanın rəmzinə çevrilib. Məktəbdə fəaliyyət göstərən Rusiya-Azərbaycan dostluğu muzeyinin, eləcə də təşkil olunan təhsil və mədəniyyət tədbirlərinin bu əlaqələrin möhkəmləndirilməsində xüsusi rolu qeyd olunub.

Nazir müavini müasir dövrdə elm, rəqəmsal texnologiyalar və süni intellektin təhsilə təsirindən bəhs edərək məktəbin yalnız bilik verməklə kifayətlənməməli, şagirdlərdə müstəqil düşünmə, qərarvermə, komanda ilə işləmək və məsuliyyətli vətəndaş olmaq bacarıqlarını da formalaşdırmalı olduğunu bildirib. Bu baxımdan müəllimin rolunun əvəzolunmaz olduğunu vurğulayaraq pedaqoji kollektivə təşəkkür edib.

İdris İsayev həmçinin Azərbaycan və Rusiya arasında təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinin, təcrübə mübadiləsinin və birgə təhsil-mədəniyyət təşəbbüslərinin əhəmiyyətini qeyd edib. Elm və Təhsil Nazirliyinin bu istiqamətdə əməkdaşlığın inkişafında maraqlı olduğunu diqqətə çatdırıb.

Digər çıxışlarda Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi qarşısındakı tarixi xidmətləri, müəyyən etdiyi inkişaf strategiyasının müasir Azərbaycanın tərəqqisindəki rolu, eləcə də Azərbaycan-Rusiya münasibətlərinin inkişafına verdiyi töhfələr vurğulanıb. Həmçinin Heydər Əliyev adına 11 saylı məktəbin iki ölkə arasında humanitar əlaqələrin və dostluq münasibətlərinin möhkəmləndirilməsindəki əhəmiyyəti, təhsil müəssisəsində Ulu Öndərin irsinin öyrənilməsi və təbliği istiqamətində görülən işlər yüksək qiymətləndirilib. Heydər Əliyev Fondunun Həştərxan vilayətində həyata keçirdiyi layihələrin əhəmiyyəti qeyd olunub, məktəbin 15 illik yubileyi münasibətilə kollektivə gələcək fəaliyyətində uğurlar arzulanıb.

Yubiley tədbiri çərçivəsində tədris ili ərzində Heydər Əliyev irsinin öyrədilməsi və təbliğində xidmətləri, eləcə də fəallıqları ilə fərqlənən müəllimlər fəxri fərman və mükafatlarla təltif olunub, təhsil nailiyyətləri ilə seçilən şagirdlərə hədiyyələr təqdim edilib. Sonda məktəblilərin ifasında yubileyə həsr olunmuş bədii proqram nümayiş etdirilib.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyətinin Həştərxan vilayətinin qubernatoru İqor Yuryeviç Babuşkinlə görüşü keçirilib. Görüşdə Azərbaycan ilə Həştərxan vilayəti arasında mövcud əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

BDU-nun yeni rektoru universitetin kollektivinə təqdim olunub





Noyabrın 19-da elm və təhsil naziri Emin Əmrullayev Bakı Dövlət Universitetinin (BDU) yeni rektoru Məleykə Abbaszadəni universitetin kollektivinə təqdim edib.

Təqdimat mərasimində çıxış edən elm və təhsil naziri Emin Əmrullayev Bakı Dövlət Universitetinin Azərbaycanın ali təhsil sistemindəki xüsusi mövqeyini və ölkənin elmi-pedaqoji potensialının formalaşmasında rolunu vurğulayıb. Nazir universitetin zəngin ənənələrinin qorunması ilə yanaşı, müasir dövrün çağırışlarına uyğun inkişafının, elmi tədqiqatların genişləndirilməsinin, tədrisin keyfiyyətinin yüksəldilməsinin və beynəlxalq akademik əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd edib.

Eyni zamanda nazir Bakı Dövlət Universitetinin əvvəlki rektoru Elçin Babayevə rəhbərliyi dövründə universitetin inkişafı istiqamətində gördüyü işlərə və fəaliyyətinə görə təşəkkürünü bildirib.

Emin Əmrullayev Məleykə Abbaszadənin uzun illər ərzində təhsil sahəsində, xüsusilə təhsildə qiymətləndirmə və keyfiyyətin təmin olunması istiqamətində fəaliyyətini, bu sahədə qazandığı təcrübəni qeyd edib, ona yeni vəzifəsində uğurlar arzulayıb. Nazir universitetin gələcək inkişafında mövcud potensialdan səmərəli istifadə edilməsinin, kollektivin birgə fəaliyyətinin və akademik mühitin daha da gücləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Məleykə Abbaszadə öz növbəsində göstərilən etimada görə təşəkkürünü bildirib.

Təqdimat mərasimində universitetin professor-müəllim heyəti və struktur bölmələrinin rəhbərləri iştirak ediblər.

Nazirlər SABAH.city innovasiya şəhərciyində

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və elm və təhsil naziri Emin Əmrullayev SABAH.city innovasiya şəhərciyində olublar.







Nazirlər şəhərcikdə həyata keçirilən işlərlə tanış olub, startapların fəaliyyəti üçün yaradılmış kovorkinq mərkəzləri və laboratoriyaların imkanlarına baxıblar.

SABAH.city-nin inkişaf perspektivləri, eləcə də qurumlararası əməkdaşlığın potensial istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Həmçinin süni intellekt sahəsində fəaliyyət göstərən startapların dəstəklənməsi, bu istiqamətdə maliyyələşmə mexanizmlərinin genişləndirilməsi və müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı təkliflər nəzərdən keçirilib. Startap ekosisteminin inkişafına dəstəyin gücləndirilməsi və SABAH.city-nin gələcək inkişaf planının hazırlanması əsas müzakirə mövzularından olub.

Beynəlxalq əmək bazarının tələblərinə cavab verən kadr hazırlığına diqqət yetirməliyik

Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaranmasının 10 illiyi çərçivəsində Peşə Təhsili Forumu keçirilib











Emin Əmrullayev

“Bəzi peşə mərkəzinin məzunları demək olar ki, 100%-ə yaxın iş tapır, amma bizim elə ali təhsil məzunlarımız var ki, onların ən yaxşı halda işə qəbulu 30%-dir

2019-cu ildən başlayaraq artıq peşə hazırlığında adambaşına maliyyələşmə mexanizminə keçid edilib. Bu, bizə özəl sektorla əməkdaşlıq etmək üçün çox geniş imkanlar yaradıb

Təhsil sistemimizdə hədəf yenə də əmək bazarının tələb və təklifləri olmalıdır. İşəgötürənlərlə əlaqələr sıx qurulmalı və biz mümkün qədər beynəlxalq əmək bazarının tələblərinə cavab verən kadr hazırlığına diqqət yetirməliyik

Əhatəlilik baxımından həm peşə təhsilində, həm də ali təhsildə əsaslı artım görürük. Bunu son 10 ilin göstəricilərinə nəzər salaraq görə bilərik”

Noyabrın 18-də Peşə Təhsili üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə peşə təhsilinin 10 illik yubileyinə həsr olunan Peşə Təhsili Forumu keçirilib.

Forumda Elm və Təhsil Nazirliyinin və Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəhbər şəxsləri və nümayəndələri, dövlət qurumlarının təmsilçiləri, Agentliyin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin direktorları, eləcə də peşə təhsili və təlimi sahəsində fəal əməkdaşlıq edən işəgötürən qurumların nümayəndələri iştirak ediblər.

Tədbirin əsas məqsədi ölkəmizdə peşə təhsili sahəsində son on ildə həyata keçirilən islahatları və əldə olunan nailiyyətləri diqqətə çatdırmaq, sahənin inkişafında iştirak edən maraqlı tərəfləri bir araya gətirmək, mövcud inkişaf tendensiyalarını və gələcək prioritetləri müzakirə etmək, eləcə də dövlət-özəl sektor tərəfdaşlığının genişləndirilməsinə töhfə vermək olub.

Forumun açılışında kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev və Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli çıxış ediblər.

Nazir müavini Zaur Əliyev çıxışında peşə təhsilinin iqtisadi sektorların inkişafı, ixtisaslı kadr təminatı və gənclərin məşğulluğu baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb. O, müasir texnologiyaların və süni intellektin tətbiqinin aqrar sektorda tələb olunan bilik və bacarıqları dəyişdirdiyini, bu baxımdan peşə təhsili proqramlarının sektorun real ehtiyaclarına uyğunlaşdırılmasının vacibliyini qeyd edib. Nazir müavini, həmçinin peşə təhsili ilə real sektor arasında əməkdaşlığın gücləndirilməsinin məzunların məşğulluq imkanlarını artırmaqla yanaşı, aqrar sahədə sahibkarlığın və regionların iqtisadi inkişafının təşviqinə töhfə verəcəyini bildirib.

Aparat rəhbəri Mətin Kərimli öz növbəsində peşə təhsilinin inkişafı üçün tədris məzmununun, pedaqoji kadr potensialının və infrastrukturun müasir tələblərə uyğunlaşdırılmasının, tədris olunan bilik və bacarıqların əmək bazarının ehtiyaclarına uyğun qurulmasının vacibliyini vurğulayıb. O, bu istiqamətdə yeni peşə təhsili müəssisələrinin tikintisi və mövcud müəssisələrin təmiri, təhsil proqramlarının yenilənməsi, müəllim heyətinin gücləndirilməsi, eləcə də dual peşə təhsilinin genişləndirilməsi istiqamətində görülən işlərdən danışıb. Aparat rəhbəri, həmçinin peşə təhsilinin yalnız iqtisadi deyil, mühüm sosial əhəmiyyət daşıdığını, gənclərin təhsildən və əmək fəaliyyətindən kənarda qalmamasının əsas hədəflərdən biri olduğunu qeyd edib.

Ardınca Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı “Peşə təhsili — 10 il” mövzusunda təqdimatla çıxış edərək son onillikdə peşə təhsili sistemində həyata keçirilən institusional və məzmun islahatları, infrastrukturun müasirləşdirilməsi, əmək bazarının tələblərinə uyğun kadr hazırlığı, işəgötürənlərlə əməkdaşlıq və əldə olunan nəticələr barədə məlumat verib.

Forum çərçivəsində iki panel müzakirəsi təşkil olunub.

“Regionlarda iqtisadi sektorların inkişafına dəstək: insan kapitalının inkişafı və dövlət-özəl əməkdaşlığı” mövzusunda keçirilən birinci panelin moderatoru “Seft Consulting” MMC-nin direktoru İlkin Nəzərov olub. Paneldə Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli, Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Veysəloğlu Şirkətlər Qrupunun baş icraçı direktorunun müavini İlqar Nuri və TABİA Group-un əməliyyatlar üzrə baş direktoru Eldar Əlimuradov iştirak ediblər.

Müzakirələr zamanı regionların iqtisadi inkişaf prioritetləri, əmək bazarının gələcək kadr tələbatının müəyyənləşdirilməsi, biznes sektorunun insan kapitalının inkişafındakı rolu, peşə təhsili müəssisələri ilə real sektor arasında əməkdaşlığın gücləndirilməsi və dövlət-özəl tərəfdaşlığının yeni imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Birinci panel sessiyasından sonra peşə təhsilinin inkişafına və insan kapitalının yetişdirilməsinə fəal töhfə verən tərəfdaş qurumların nümayəndələrinin təltifolunma mərasimi keçirilib. Həmçinin Agentliyin son onillikdəki fəaliyyətini və peşə təhsili sahəsində əldə olunan inkişaf nəticələrini əks etdirən videoçarx nümayiş etdirilib.

Forum “Dəyişən iqtisadiyyat, dəyişən bacarıqlar: Gələcəyin insan kapitalının yetişdirilməsi” mövzusunda ikinci panel sessiyası ilə davam edib. “Innoveta” MMC-nin direktoru Pərviz Yusifovun moderatorluğu ilə keçirilən paneldə elm və təhsil naziri Emin Əmrullayev, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) icraçı direktoru Şahin Babayev çıxış ediblər.

Panel çərçivəsində dəyişən əmək bazarının tələblərinə uyğun insan kapitalının formalaşdırılması, gələcəyin peşə və bacarıq ehtiyacları, texnoloji və iqtisadi dəyişikliklərin kadr hazırlığına təsiri, eləcə də peşə təhsili ekosisteminin gələcək inkişaf istiqamətləri və bu sahədə mövcud çağırışlar müzakirə olunub.

İkinci panel sessiyasının ardından Peşə Təhsili üzrə Dövlət Agentliyinin bir qrup əməkdaşı Agentliyin yaradılmasının 10 illiyi münasibətilə peşə təhsilinin inkişafına, tərəfdaşlarla əməkdaşlığın gücləndirilməsinə və fəaliyyətləri ilə sahəyə verdikləri töhfələrə görə Fəxri Fərmanla təltif olunublar.

Peşə Təhsili Forumu ölkənin iqtisadi inkişaf prioritetlərinə uyğun ixtisaslı kadr hazırlığının təşviqi, insan kapitalının inkişafı, əmək bazarının dəyişən tələblərinə uyğun peşə təhsili modelinin formalaşdırılması və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi baxımından mühüm müzakirə platforması olub. Forum, eyni zamanda, peşə təhsilinin son onillikdə keçdiyi inkişaf yolunun qiymətləndirilməsi və növbəti mərhələnin prioritetlərinin müəyyənləşdirilməsi üçün əhəmiyyətli imkan yaradıb.

Elm və təhsil naziri Naxçıvanda vətəndaşları qəbul edib



Noyabrın 16-da elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan şəhərində vətəndaşları qəbul edib.

Qəbulda Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verib.

Müəllim fəaliyyətinin qiymətləndirilməsində əsas meyar şagirdlərin öyrənmə nəticələridir

Elm və təhsil naziri Emin Əmrullayev Naxçıvanda müəllimlərlə görüşüb

Elm və təhsil naziri Emin Əmrullayev noyabrın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində muxtar respublikanın ümumi təhsil müəssisələrində çalışan bir qrup müəllimlə görüşüb.







Görüşdən əvvəl Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovla birgə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılmış abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Ovni Muradov və nazirliyin əməkdaşları da iştirak ediblər.

Görüş zamanı son illərdə ölkənin təhsil sistemində həyata keçirilən islahatlar, təhsilin məzmununun müasir çağırışlara uyğunlaşdırılması, müəllimlərin sertifikatlaşdırılması, peşəkar inkişaf imkanlarının genişləndirilməsi, işə qəbul, qiymətləndirmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində görülən işlər və qarşıda duran hədəflər müzakirə olunub.

Nazir Emin Əmrullayev Naxçıvanda təhsilin inkişafı, təhsilin keyfiyyətinin yüksəldilməsi, şagirdlər üçün bərabər imkanların yaradılması və müasir dövrün təhsil sisteminin qarşısında qoyduğu tələblər barədə fikirlərini bölüşüb.

Nazir təhsilin əsas məqsədlərindən birinin şagirdlərin şəxsiyyət kimi formalaşması olduğunu vurğulayıb. Bildirib ki, uşağın hansı ailədə və hansı bölgədə dünyaya gəlməsindən asılı olmayaraq təhsil ona gələcəkdə uğur qazanmaq üçün bərabər imkanlar yaratmalıdır.

Təhsilin keyfiyyətinə toxunan Emin Əmrullayev müasir dövrdə şagirdlərə yalnız mövcud biliklərin ötürülməsinin kifayət etmədiyini, tədrisin məzmununun dəyişən dünyanın tələblərinə uyğunlaşdırılmasının vacibliyini qeyd edib. Süni intellektin inkişafının təhsilin qarşısında yeni çağırışlar yaratdığını bildirən nazir şagirdlərdə müstəqil düşünmə, problemləri təhlil etmə və onların həlli yollarını tapmaq bacarıqlarının formalaşdırılmasının əhəmiyyətini vurğulayıb.

Emin Əmrullayev müəllim fəaliyyətinin qiymətləndirilməsində əsas meyarın şagirdlərin öyrənmə nəticələri olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, təhsil sistemində qəbul edilən qərarların başlıca məqsədi şagirdlərin daha keyfiyyətli təhsil almalarına xidmət etməkdir.

Görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Ovni Muradov muxtar respublikada təhsil sahəsində mövcud vəziyyət, təhsil müəssisələrinin infrastrukturu və maddi-texniki təminatı, eləcə də müəllimlərin peşəkar inkişafı istiqamətində görülən işlər barədə məlumat verib.

Daha sonra elm və təhsil naziri Emin Əmrullayev müəllimlərin fikir və təkliflərini dinləyib, onları maraqlandıran sualları cavablandırıb.

Görüş çərçivəsində 5 oktyabr — Beynəlxalq Müəllimlər Günü münasibətilə təltif olunmuş Naxçıvan təhsil işçilərinə mükafatlar təqdim edilib.

Çıxış edən müəllimlər onlara göstərilən diqqətə və əməyə verilən qiymətə görə minnətdarlıqlarını bildirərək bu cür görüşlərin mövcud məsələlərin müzakirəsi və təcrübə mübadiləsi baxımından əhəmiyyətini vurğulayıblar.

Sonda xatirə fotosu çəkdirilib.

I Azərbaycan-Gürcüstan Rektorlar Konfransı keçirilib

Noyabrın 16-da Gürcüstanın paytaxtı Tbilisi şəhərində I Azərbaycan—Gürcüstan Rektorlar Konfransı işə başlayıb.Gürcüstan Texniki Universitetində keçirilən konfransda elm və təhsil nazirinin müavini İdris İsayevin rəhbərlik etdiyi nümayəndə heyəti, Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev, Gürcüstanın təhsil, elm və gənclər nazirinin müavini Zviad Qabisoniya, eləcə də hər iki ölkənin ali təhsil müəssisələrinin rektorları və nümayəndələri iştirak edirlər. Konfransın açılışında Gürcüstan Texniki Universitetinin rektoru David Gurgenidze iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətini vurğulayıb.



Açılış mərasimində çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev Azərbaycan və Gürcüstan arasında elm və ali təhsil sahəsində əməkdaşlığın inkişafından bəhs edərək iki ölkənin universitetləri arasında əlaqələrin genişləndirilməsinin, birgə təhsil və tədqiqat təşəbbüslərinin həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb.

İdris İsayev hazırda Azərbaycanın ali təhsil müəssisələrində 1117 Gürcüstan vətəndaşının təhsil aldığını diqqətə çatdırıb. O, həmçinin ötən il Azərbaycanın 6 və Gürcüstanın 7 ali təhsil müəssisəsi arasında 7 əməkdaşlıq memorandumunun imzalandığını qeyd edib.

Çıxışında elmi əməkdaşlığın inkişaf perspektivlərinə toxunan nazir müavini süni intellekt, bərpa olunan enerji, su ehtiyatlarının idarə olunması və kənd təsərrüfatı texnologiyaları kimi istiqamətlərdə birgə tədqiqatların aparılmasının vacibliyini bildirib. Bu sahələrdə təcrübə mübadiləsinin genişləndirilməsi, birgə tədqiqat qruplarının yaradılması və elmi tədbirlərin təşkili imkanlarına diqqət çəkib.

İdris İsayev elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, universitetlərin akademik potensialının artırılması, innovasiya və startap mühitinin inkişaf etdirilməsi, eləcə də beynəlxalq ikili diplom proqramlarının genişləndirilməsinin əhəmiyyətindən danışıb.

Nazir müavini konfrans çərçivəsində aparılan müzakirələrin və əldə olunan razılaşmaların Azərbaycan və Gürcüstan arasında elm və ali təhsil sahəsində əməkdaşlığın daha da inkişafına, yeni birgə layihələrin həyata keçirilməsinə və uzunmüddətli tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Çıxış edən Gürcüstanın təhsil, elm və gənclər nazirinin müavini Zviad Qabisoniya iki ölkə arasında elm və ali təhsil sahəsində əməkdaşlığın inkişafından, universitetlərarası əlaqələrin genişləndirilməsindən və birgə təşəbbüslərin həyata keçirilməsinin əhəmiyyətindən bəhs edib.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev isə çıxışında iki ölkə arasında dostluq münasibətlərinin möhkəmləndirilməsində elm və təhsil sahəsində əməkdaşlığın rolunu vurğulayıb.

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova “Azərbaycanda elmi-tədqiqat əməkdaşlığının və beynəlmiləlləşmənin inkişafı” mövzusunda təqdimatla çıxış edib.

Təqdimatda Azərbaycanda elm və ali təhsil sahəsində həyata keçirilən islahatlar, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsi və ali təhsilin beynəlmiləlləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat verilib. Təqdimatın sonunda elmi-tədqiqat əməkdaşlığının genişləndirilməsi, universitetlərin beynəlxalq əlaqələrinin gücləndirilməsi və birgə elmi təşəbbüslərin inkişafının əhəmiyyəti vurğulanıb.

Konfrans çərçivəsində Azərbaycan və Gürcüstan universitetlərinin rektorlarının iştirakı ilə panel müzakirələri təşkil olunub, ali təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri və yeni tərəfdaşlıq imkanları müzakirə edilib.

Tədbir çərçivəsində həmçinin iki ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlıq memorandumları imzalanıb.

Tbilisidə “Study in Azerbaijan” təhsil sərgisi

Noyabrın 17-də Gürcüstanın paytaxtı Tbilisi şəhərində “Study in Azerbaijan” təhsil sərgisi keçirilib. “Study in Azerbaijan” layihəsinin təşkilatçılığı, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Azərbaycanın Gürcüstandakı səfirliyinin dəstəyi ilə keçirilən sərgidə ölkəmizin ali təhsil müəssisələri təmsil olunub.







Sərginin açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini İdris İsayev “Study in Azerbaijan” təşəbbüsünün Azərbaycanın ali təhsil imkanlarının beynəlxalq səviyyədə tanıdılmasında və xarici tələbələrin ölkəmizdə təhsilə cəlb olunmasında əhəmiyyətini vurğulayıb. Nazir müavini sərginin ziyarətçilərə Azərbaycan universitetlərinin təhsil proqramları və qəbul imkanları barədə birbaşa məlumat əldə etmək, maraqlandıqları sualları universitet nümayəndələrinə ünvanlamaq üçün əlverişli şərait yaratdığını bildirib.

Azərbaycan Respublikasının Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev çıxışında iki ölkə arasında dostluq münasibətlərinin inkişafında təhsilin rolunu vurğulayıb. Səfir bu cür təşəbbüslərin Azərbaycan və Gürcüstan arasında təhsil əlaqələrinin genişlənməsinə, gənclər arasında akademik mobilliyin təşviqinə və qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə xidmət etdiyini qeyd edib.

Xəzər Universitetinin rektoru Raziyə İsayeva isə Azərbaycan ali təhsil müəssisələrinin beynəlxalq təhsil imkanlarından və xarici tələbələr üçün yaradılan şəraitdən danışıb.

Çıxışlardan sonra simvolik lent kəsilib və sərgiyə baxış başlayıb. İştirakçılar Azərbaycan universitetlərinin stendləri ilə tanış olaraq təqdim olunan təhsil imkanları barədə məlumat alıblar.

Sərgi çərçivəsində ziyarətçilərə Azərbaycan universitetlərinin təhsil proqramları, ixtisaslar, qəbul qaydaları, təhsil haqları, təqaüd imkanları və tələbə həyatı barədə ətraflı məlumat verilib.

Gürcüstanda yaşayan məktəblilər, abituriyentlər, tələbələr və valideynlər universitet nümayəndələri ilə birbaşa görüşərək onları maraqlandıran suallara cavab almaq imkanı əldə ediblər.

Azərbaycan OECD ilə birgə iqlim üzrə öyrənmə və qiymətləndirmə platformasının hazırlanmasına dəstək verir

Nazir müavini Həsən Həsənlinin rəhbərlik etdiyi nümayəndə heyəti COP31-də iştirak edib

Elm və təhsil nazirinin müavini Həsən Həsənlinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin Antalya şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasında (COP31) iştirak edib. Konfransın Gənclər və Təhsil Günü çərçivəsində 14 noyabr tarixində “Təhsilin yaşıllaşdırılmasında sübuta əsaslanan monitorinq, təcrübə mübadiləsi və əməkdaşlıq” sessiyası təşkil olunub.



Sessiya Azərbaycanın COP29-da irəli sürdüyü, Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı (PISA) vasitəsilə iqlim savadlılığının ölçülməsinə dair təşəbbüsün davamı kimi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, COP29 Sədrliyi və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə təşəbbüsü, eləcə də COP31 Sədrliyi, Türkiyə Respublikasının Milli Təhsil Nazirliyi və UNESCO-nun dəstəyi ilə təşkil olunub.

Sessiyada çıxış edən Həsən Həsənli iştirakçıları Azərbaycanda iqlim savadlılığı istiqamətində görülmüş işlər barədə məlumatlandırıb. O, kurikulumun və milli standartların yenilənməsi, məzmunun hazırlanması, müəllimlərin peşəkar inkişafı üçün təşkil olunan təlimlər və qiymətləndirmə sahəsində görülən işlərdən danışıb, iştirakçı ölkələri birgə fəaliyyətə dəvət edib. Nazir müavini həmçinin Azərbaycanın OECD ilə birgə iqlim üzrə öyrənmə və qiymətləndirmə platformasının hazırlanmasına dəstək verdiyini qeyd edib.

“Dəyirmi masa” formatında keçirilən yüksək səviyyəli sessiyada iştirak edən OECD-nin Təhsil və Bacarıqlar departamentinin direktoru Andreas Şleyxer, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, eləcə də digər yüksək səviyyəli nümayəndələr Azərbaycanın Bakıda keçirilən COP29-da irəli sürdüyü və bu gün artıq reallığa çevrilən təşəbbüsünü yüksək qiymətləndiriblər. Onlar bu təşəbbüsün nəticəsində PISA 2029-da şagirdlərin iqlim savadlılığının beynəlxalq miqyasda qiymətləndirilməsinin mümkün olacağını xüsusi vurğulayıblar. Çıxış edənlər bu addımı qlobal təhsil siyasətində mühüm dönüş nöqtəsi hesab edərək Azərbaycanın iqlim savadlılığının formalaşdırılması üzrə yaratdığı əməkdaşlıq modelini digər dövlətlər üçün ilhamverici təcrübə kimi dəyərləndiriblər.

Tədbirdə həmçinin 2025-ci ildə Azərbaycan və Braziliyada iqlim savadlılığı üzrə keçirilmiş pilot qiymətləndirmələrin nəticələri təqdim edilib.

Bundan başqa, 14 noyabr tarixində nümayəndə heyəti Türkiyə Respublikasının Milli Təhsil Nazirliyi və UNESCO tərəfindən təşkil olunan “Yaşıl təhsilin mərkəzində uşaqlar, gənclər və müəllimlər” mövzusunda yüksək səviyyəli sessiyada iştirak edib.

Apellyasiya Şurasının növbəti iclası keçirilib

Noyabrın 19-da elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Şuranın növbəti iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin Elm və ali təhsil sektorunun baş məsləhətçisi vəzifəsinə namizəd İlahə Hüseynlinin, Beynəlxalq əməkdaşlıq şöbəsinin Beynəlxalq əlaqələr sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Zəhra Fətullayevanın və Gülzar Həbibovanın, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Uşaq inkişafı və rifahı şöbəsinin baş məsləhətçisi vəzifəsinə namizəd Xanım Həsənovanın və İctimaiyyətlə əlaqələr sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizəd Xumar Babayevanın, Peşə Təhsili üzrə Dövlət Agentliyinin Sənədlərlə və müraciətlərlə iş sektorunun məsləhətçisi vəzifəsinə namizəd Jalə Pənahovanın şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 5 şikayətin təmin edilməsi və 1 şikayətin qismən təmin edilməsi barədə Şura tərəfindən qərarlar qəbul olunub.

Dürüstlük, obyektivlik və məsuliyyət prinsipləri sağlam və etibarlı təhsil mühitini formalaşdırır

Dağlıq Şirvan regionunda təhsil işçiləri üçün antikorrupsiya mövzusunda təlim keçirilib

Elm və Təhsil Nazirliyi ilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin birgə əməkdaşlığı çərçivəsində Dağlıq Şirvan regionunda təhsil işçiləri üçün "Antikorrupsiya davranış modelinin formalaşdırılması" mövzusunda maarifləndirmə tədbiri keçirilib.







Tədbir Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində təhsil işçilərinin məlumatlılığının artırılması, etik davranış prinsiplərinin təşviqi və korrupsiyaya qarşı davranışın formalaşdırılması məqsədilə təşkil olunub.

Tədbirdə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, nazirliyin Daxili nəzarət şöbəsinin müdiri Kamran İsmayılov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Səbuhi Şahverdiyev, Mərkəzin şöbə rəisi Nigar Qələndərli, Dağlıq Şirvan Regional Təhsil İdarəsinin müdiri Ramin Abasov və digər qonaqlar iştirak ediblər.

Tədbirin açılış hissəsində çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planının əhəmiyyətini vurğulayıb. Tahir Məmmədov bu istiqamətdə əldə olunan təcrübənin gələcəkdə də davam etdirilməsinin, maarifləndirmə tədbirlərinin genişləndirilməsinin və korrupsiya risklərinin vaxtında müəyyənləşdirilərək aradan qaldırılmasının vacibliyini diqqətə çatdırıb. Qeyd edib ki, bu istiqamətdə dövlət qurumlarının birgə fəaliyyəti və cəmiyyətin bütün sahələrində dürüstlük prinsiplərinin təşviqi korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılmasına xidmət edir.

Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli çıxışında korrupsiyaya qarşı mübarizənin qanunun aliliyinin, şəffaflığın və dövlətə ictimai etimadın təmin olunmasında mühüm rolunu vurğulayıb. Qeyd edib ki, bu istiqamətdə yalnız hüquqi məsuliyyət tədbirləri deyil, həm də dürüstlük, həssabatlılıq və etik davranış prinsiplərinin təşviqi vacibdir.

Aparat rəhbəri bildirib ki, 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı çərçivəsində Elm və Təhsil Nazirliyi tərəfindən təhsil işçilərinin antikorrupsiya sahəsində məlumatlılığının artırılması və korrupsiyaya qarşı dözümsüz münasibətin formalaşdırılması məqsədilə ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilib. Bu çərçivədə 2026-cı ilin birinci yarımilinin sonunadək 3930 tədbir təşkil olunub, 149470 iştirak qeydə alınıb.

Mətin Kərimli təhsil sistemində çalışan hər bir şəxsin fəaliyyətində dürüstlük, obyektivlik və məsuliyyət prinsiplərinə əməl etməsinin vacibliyini vurğulayıb. Qeyd edib ki, bu prinsiplərin gündəlik fəaliyyətin ayrılmaz hissəsinə çevrilməsi sağlam və etibarlı təhsil mühitinin formalaşmasına xidmət edir.

Çıxışlar zamanı Milli Fəaliyyət Planının korrupsiyaya qarşı mübarizədə strateji əhəmiyyəti, məqsəd və hədəfləri, icrasından əldə olunan müsbət nəticələr, eləcə də Elm və Təhsil Nazirliyi ilə Baş Prokurorluq arasında əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Həmçinin nazirlik tərəfindən həyata keçirilən maarifləndirmə tədbirlərinin nəticələri, təhsil işçilərində antikorrupsiya davranış modelinin formalaşdırılması, dürüstlük və şəffaflıq prinsiplərinin təşviqi istiqamətində görülən işlər barədə məlumat verilib.

Təlim çərçivəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Elm və Təhsil Nazirliyinin əməkdaşları tərəfindən korrupsiyanın mahiyyəti və cəmiyyətə təsiri, təhsil sahəsində korrupsiya hüquqpozmalarına qarşı qabaqlayıcı tədbirlərin əhəmiyyəti və preventiv mexanizmlərin rolu diqqətə çatdırılıb. Həmçinin dövlət qulluqçularının etik davranış qaydaları və maraqlar toqquşmasının qarşısının alınması imkanları barədə məsələlərə toxunulub.

Tədbirin sonunda iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Əsas töhfə birlikdə öyrənmək və dəyər yaratmaq prosesidir

IV "Maarifçi" Tələbə-Məzun Forumu keçirilib

Noyabrın 20-də Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında fəaliyyət göstərən SABAH.city innovasiya şəhərciyində IV "Maarifçi" Tələbə-Məzun Forumu keçirilib. IV "Maarifçi" proqramı iştirakçılarının təşəbbüsü ilə keçirilən və "İnsan kapitalı və rəqəmsal gələcək: əmək bazarında yeni dövr" mövzusuna həsr olunan forumda təhsil və məşğulluq sahəsində baş verən dəyişikliklər, süni intellektin əmək bazarına təsiri, gələcəyin peşələri və müasir dövrdə tələb olunan bacarıqlar müzakirə edilib.





Forumun aparıcısı - IV "Maarifçi" Tələbə-Məzun Proqramının iştirakçısı Aytac Qarayeva tədbirin məqsədi və proqramı barədə məlumat verib.

Tədbirin açılışında çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli forumun bu formatda ilk dəfə keçirildiyini və məzmununun da "Maarifçi" proqramının iştirakçıları tərəfindən hazırlandığını bildirib.

Aparat rəhbəri proqramın builki mərhələsinin 50 məzunu olduğunu, ümumilikdə məzunların sayının isə 150 nəfəri ötəcəyini diqqətə çatdırıb. O bildirib ki, "Maarifçi" proqramının əsas töhfələrindən biri iştirakçılar arasında əlaqələrin qurulması, birgə öyrənmə və dəyər yaratmaq imkanlarının formalaşdırılmasıdır. Mətin Kərimli həmçinin regionlarda maarifçilərin fəaliyyətinin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb. Forumun mövzusu barədə danışan Mətin Kərimli süni intellektin təsirinin iqtisadiyyatın strukturundan, demoqrafiyadan, təhsil və bacarıqlardan və texnoloji inkişaf səviyyəsindən asılı olduğunu bildirib, yeni dövrə hazırlıq üçün adaptasiya və yeni bacarıqların, "hibrid peşəkar" kimi formalaşmağın əhəmiyyətini qeyd edib.

Daha sonra Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəis müavini Ayaz Abuşov "Təhsildə rəqəmsal innovasiyalar və süni intellekt" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda süni intellekt texnologiyalarının təhsil sistemində tətbiqinin üç əsas istiqaməti diqqətə çatdırılıb. Bildirilib ki, "Bərabər imkanlar" yanaşması bütün şagirdlərin keyfiyyətli təhsilə bərabər çıxışını, "Məhsuldar müəllim" yanaşması müəllimlərin işinin səmərəliliyinin artırılmasını, "Sübut-əsaslı qərarvermə" isə məlumatlara əsaslanan təhlillər vasitəsilə təhsil idarəçiliyində daha düzgün qərarların qəbulunu nəzərdə tutur.

Forum çərçivəsində "Süni intellekt dövründə gələcəyin mütəxəssisləri və əmək bazarı" mövzusunda panel müzakirəsi də keçirilib. Panelin moderatoru IV "Maarifçi" proqramının iştirakçısı Aydan Hacıyeva olub.

Paneldə çıxış edən Dövlət Məşğulluq Agentliyinin İdarə Heyəti sədrinin müavini Ramal Quluzadə əmək bazarında baş verən dəyişikliklərin gənclər qarşısında yeni tələblər formalaşdırdığını bildirib. O qeyd edib ki, müasir dövrdə ali təhsil diplomu işə qəbul üçün yeganə meyar deyil. Əmək bazarında uğur qazanmaq üçün bilik və bacarıqların mütəmadi yenilənməsi, yeni tələblərə uyğunlaşma və əlavə təlimlərdə iştirak mühüm əhəmiyyət daşıyır.

Süni intellektin gələcək peşələrə və əmək bazarına təsirinə də toxunan Ramal Quluzadə yeni texnologiyaların tarixən müəyyən narahatlıqlar, eyni zamanda yeni peşələrin və fəaliyyət istiqamətlərinin formalaşmasına şərait yaratdığını diqqətə çatdırıb. Onun sözlərinə görə, süni intellektin tətbiqi zamanı ölkənin iqtisadi ehtiyacları, ixtisaslı kadrlara tələbat və insan amili nəzərə alınmalıdır.

> **IV "Maarifçi" proqramının 50 məzunu var. Məzunlarımızın sayı 150 nəfəri ötəcək. Bu, artıq böyük bir icmadır. Burada əsas töhfə əlaqələrin qurulması, birlikdə öyrənmək və dəyər yaratmaq prosesidir. Bu bizim öz imkanlarımız və miqyasımız daxilində insan kapitalına verə bildiyimiz töhfədir**
>
> **Ən böyük uğurlarımızdan biri bu gün həmin həmkarlarımızın ən böyük dəstəkçilərimizdən olmasıdır. Xoşdur ki, regionlara səfər edəndə maarifçilərimizin proseslərdə fəal iştirak etdiyini görürük. Təcrübə regionlarda "Maarifçi" proqramının özünü doğrultduğunu göstərir**

Agentlik rəsmisi həmçinin regionlarda yaşayan gənclərin məşğulluq imkanlarının genişləndirilməsi istiqamətində görülən işlərdən danışıb. Müxtəlif bölgələrdə məşğulluq forumlarının keçirildiyini bildirən Ramal Quluzadə bu təşəbbüsün Naxçıvan və Xankəndidə də davam etdirilməsinin nəzərdə tutulduğunu qeyd edib.

Panelin digər iştirakçısı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Nigar Adilova "Maarifçi" layihəsinin insan kapitalının inkişafına və yeni nəslin yetişdirilməsinə verdiyi töhfəni vurğulayıb. O, layihə çərçivəsində həyata keçirilən təşəbbüslərin davamlılığının və əldə olunan nəticələrin əhəmiyyətini qeyd edib. Eyni zamanda, tələbələrin sənaye müəssisələrində daha çox praktiki təcrübə qazanmalarının, nəzəri biliklərini real iş mühiti ilə əlaqələndirmələrinin vacibliyini diqqətə çatdırıb.

Azərbaycan Texniki Universitetinin Kibertəhlükəsizlik və Müdafiə Texnologiyaları İnstitutunun və Süni İntellekt Əsaslı Mühəndislik Təhlükəsizliyi Mərkəzinin direktoru Rahid Ələkbərli çıxışında süni intellekt texnologiyaları ilə bağlı aparılan tədqiqatlardan və bu texnologiyalardan istifadə zamanı etik prinsiplərin qorunmasının vacibliyindən danışıb. O, sorğuların (promptların) düzgün formalaşdırılmaması və süni intellekt alətlərindən qeyri-düzgün istifadə nəticəsində yanlış nəticələrin və xətaların yarana biləcəyini bildirib. Bu baxımdan, düzgün sorğuların hazırlanmasının, əldə olunan nəticələrin təhlil və yoxlanılmasının əhəmiyyətini vurğulayıb.

Yüksək Texnologiyalar Parkının baş icraçı direktorunun müavini Abutab Abbasova isə Parkda tələbələr və yeni məzunlar üçün yaradılan imkanlardan danışıb. O, gənclərin innovativ ideyalarının dəstəklənməsi, startap təşəbbüslərinin inkişafı və reallaşdırılması istiqamətində mövcud imkanlar barədə məlumat verib.

Forumun müzakirələri insan kapitalının inkişafı, təhsilin əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması, rəqəmsal texnologiyalardan düzgün istifadə və gənclərin gələcəyin peşələrinə hazırlanması məsələlərinin əhəmiyyətini bir daha önə çıxarıb.

Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun nəticələri müzakirə olunub

Noyabrın 20-də Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Texniki Universitetində 2026—2027-ci tədris ili üzrə orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun nəticələrinə həsr olunmuş görüş keçirilib.



Orta ixtisas təhsili müəssisələrinin rəhbər və işçi heyətinin iştirak etdiyi görüşdə cari tədris ili üzrə qəbul göstəriciləri əvvəlki illərin nəticələri ilə müqayisə edilib, sahənin inkişaf perspektivləri və qarşıda duran vəzifələr müzakirə olunub.

Görüşü giriş sözü ilə açan Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin müdiri Turxan Süleyman orta ixtisas təhsili sahəsində həyata keçirilən islahatlar, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlər və təhsil müəssisələrindən əsas gözləntilər barədə məlumat verib.

Daha sonra Elm, ali və peşə təhsili şöbəsinin sektor müdiri Səbinə Babayeva 2026—2027-ci tədris ili üzrə orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun nəticələrinə dair təqdimatla çıxış edib. Təqdimatda 2021—2022-ci tədris ilindən başlayaraq tələbə qəbulunun dinamikası və faktiki qəbul göstəriciləri, eləcə də ixtisaslar və təhsil müəssisələri üzrə nəticələr əks olunub. Qəbul olunan tələbələrin demoqrafik göstəriciləri və məzunların məşğulluq vəziyyəti də təhlil edilib.

Görüşdə təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması, tələbə qəbulu planlaşdırılarkən əmək bazarının ehtiyaclarının və təhsil müəssisələrinin potensialının nəzərə alınması, habelə məzunlarla əlaqələrin gücləndirilməsi və karyera dəstəyi məsələləri diqqətə çatdırılıb.

Sonda orta ixtisas təhsili müəssisələrinin rəhbərləri ilə tələbə qəbulunun nəticələri, mövcud çağırışlar və qarşıda duran prioritet vəzifələr ətrafında fikir mübadiləsi aparılıb.

Təhsil ictimaiyyətinin rəy və təklifləri öyrənilir



Riyaziyyat dərsliklərinin ictimai müzakirəsi keçirilib



Noyabrın 19-da riyaziyyat fənni üzrə kurikulum və dərsliklərin təkmilləşdirilməsinə həsr olunan ictimai müzakirə keçirilib. Tədbirdə dövlət və özəl ümumi təhsil və ali təhsil müəssisələrinin qabaqcıl müəllimləri, dərslik müəllifləri və mütəxəssislər iştirak ediblər.

Görüşün məqsədi riyaziyyat fənni üzrə kurikulum və dərsliklərin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə məlumat vermək, təhsil ictimaiyyətinin rəy və təkliflərini öyrənmək olub.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Təhsil İnstitutunun (ARTİ) direktor səlahiyyətlərini müvəqqəti icra edən, elm və təhsil nazirinin müşaviri Elnur Əliyev dərsliklərin hazırlanması, sınaqdan keçirilməsi və ekspertizası prosesləri barədə məlumat verib. O, hər bir dərsliyin kütləvi istifadəyə verilməzdən əvvəl mütəxəssislər tərəfindən qiymətləndirildiyini, pilot tətbiqin nəticələrinin və ictimai rəylərin təkmilləşdirmə prosesində nəzərə alındığını bildirib.

Daha sonra ARTİ-nin Təhsil standartları və proqramları şöbəsinin müdiri Mənsur Məhərrəmov riyaziyyat fənni üzrə kurikulumun təkmilləşdirilməsi ilə bağlı təqdimatla çıxış edib. Təqdimatda beynəlxalq təcrübənin öyrənilməsi, standartlardakı təkrarların aradan qaldırılması, mövzuların siniflər üzrə ardıcıllığının yenilənməsi və məzmunun optimallaşdırılması məsələləri diqqətə çatdırılıb. Həmçinin təkmilləşdirilmiş kurikulumda qiymətləndirmə və sinifdaxili fəaliyyətlərlə bağlı tövsiyələrin yer aldığı bildirilib.

Ardınca dərslik müəllifi Zaur İsayev riyaziyyat dərsliklərinin hazırlanması və təkmilləşdirilməsi istiqamətində görülən işlərdən bəhs edib. O, dərsliklərdə siniflərarası məzmun ardıcıllığının təmin olunması, şagirdlərin fərdi imkanlarına uyğun tapşırıqların hazırlanması, eləcə də pilot məktəblərdə aparılan müşahidələrin və müəllim rəylərinin təhlili barədə məlumat verib.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Hikmət Əlizadə çıxışında dərsliklərin təkmilləşdirilməsində müəllimlərin rəy və təkliflərinin öyrənilməsinin, açıq dialoqun əhəmiyyətini vurğulayıb. O, dərslik müəlliflərinin məktəblərə səfər edərək riyaziyyat müəllimləri ilə görüşməsini, onların tədris təcrübəsinə əsaslanan təkliflərini dinləməsini tövsiyə edib. Həmçinin müxtəlif fənlər üzrə ictimai müzakirələrin Bakı ilə yanaşı, regionlarda da keçirilməsinin vacibliyini qeyd edib.

Davam edən müzakirələrdə təhsil ictimaiyyətinin nümayəndələri riyaziyyat fənni üzrə kurikulum və dərsliklərin məzmununa dair rəy və təkliflərini bölüşüblər. Səsləndirilən məsələlər ətrafında fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

"Neyron.ai" platforması "Rəqəmsal məktəb"də istifadəyə verilib

Elm və Təhsil Nazirliyi ilə Milli Süni İntellekt Mərkəzinin əməkdaşlığı çərçivəsində "Rəqəmsal məktəb" platformasına "Neyron.ai" inteqrasiya edilib. Milli Süni İntellekt Mərkəzinin hazırladığı "Neyron.ai" interaktiv süni intellekt öyrənmə platformasıdır. Platforma şagird və müəllimlərin ödənişsiz istifadəsinə təqdim olunur.

"Neyron.ai" şagirdlərə süni intellektin əsas prinsiplərini, iş mexanizmlərini və gündəlik həyatda tətbiq imkanlarını öyrənmək fürsəti yaradır. Yaş xüsusiyyətləri nəzərə alınmaqla hazırlanan mövzular praktiki tapşırıqlar və oyun əsaslı öyrənmə elementləri ilə zənginləşdirilib. Bu yanaşma şagirdlərin yeni biliklər əldə və onları praktiki şəkildə tətbiq etməsinə imkan verir.

Müəllimlər isə platformanın imkanlarından süni intellekt sahəsində biliklərini genişləndirmək, bu texnologiyaların tədrisdə tətbiqi ilə tanış olmaq və dərs materiallarının hazırlanmasında istifadə etmək üçün yararlana bilərlər.

Platformaya daxil olmaq üçün şagird və müəllimlər "Rəqəmsal məktəb"də şəxsi kabinetlərinin "Tətbiqlər" bölməsindən "Neyron AI" bölməsini seçməlidirlər.

"Sabahın alimləri" XVI Respublika Layihə Müsabiqəsinə qeydiyyat başlayır

ABŞ-nin "Society for Science" təşkilatı tərəfindən təşkil olunan Beynəlxalq Elm və Mühəndislik Sərgisi (ISEF) çərçivəsində ölkəmizdə "Sabahın alimləri" XVI Respublika Layihə Müsabiqəsi keçiriləcək.

Müsabiqənin məqsədi ölkəmizdə fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara cəlb edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması çərçivəsində 9 istiqamət (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri, robototexnika və süni intellekt) üzrə elmi tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar olunmasıdır.

Müsabiqədə iştirak etmək istəyən şagirdlər 19 noyabr saat 11:00-dan etibarən 18 dekabr saat 15:00-dək https://anket.edu.az/user/396 (Sorğuların idarə olunması) platforması üzərindən qeydiyyatdan keçməli və formaları göndərərək qeydiyyatı tamamlamalıdırlar.

Bu il müsabiqənin formalarında dəyişiklik edildiyi üçün iştirakçılar qeydiyyata başlamazdan əvvəl qaydaları diqqətlə oxumalı və yenilənmiş formalardan istifadə etməlidirlər.

Fərdin şəxsiyyət kimi inkişafının sirri

Hələ qədim dövrlərdə insanlar şüurlu fəaliyyətə başlayanda onu digər canlılardan fərqləndirən mədəniyyəti əldə etməyə, yaratmağa çalışdılar. Təbii ki, bu, uzun sürən proses idi, hər halda insan bunu reallaşdıra bildi. Bütün canlılar öz balalarını, instinktləri əsasında həyata hazırlayırlar. İnsanlar da şüurlu fəaliyyətə başlayana qədər öz övladlarını bu yolla həyata hazırlayırdılar. Şüurlu fəaliyyətə başlayanda əldə etdikləri mədəniyyəti sosial təcrübə kimi onlara ötürməyə başladılar. Bu zaman maraqlı situasiya yarandı, onlar öz övladlarına mədəniyyəti ötürərkən "zorakılıq" metodlarından istifadə etdilər. Əlbəttə, bunu qədim insana bağışlamaq olar, axı o bu metodlardan instinktiv olaraq istifadə edirdi, hələ öz keçmişindən çox "uzaqlaşmamışdı". Bu metodların zaman kontekstində getdikcə humanistləşəcəyini (oxu: mədəniləşəcəyini) gözləmək olardı, amma belə olmadı, hətta ilk məktəblər yarananda belə zorakılıq metodları yox olmadı.



Sokratın "sehrli çırağı" haqqında rəvayət

Deyilənə görə, böyük filosof Sokrat günün günorta çağı əlində çıraq gəzirmiş. Ondan soruşurlar ki, "günün günorta çağı əlində çıraqla nə axtarırsan?" Filosof bu suala heç kimin gözləmədiyi qeyri-standart bir cavab verib: "İnsan axtarıram". Fikir verin, filosofun insanlar arasında insan axtarması nə deməkdir? Hamı bu cavaba qəribə baxırdı. Amma... görəsən o insan tapa bildimi? Deyilənə görə, görmək istədiyi insanı tapa bilmədi. Görəsən, çıraq sehrini itirmişdi, yoxsa insanlar arasında insan yox idi? Bu suala cavab vermək məsuliyyətini heç kim üzərinə götürmək istəməz, amma hamı fikirləşib, öz məntiqi ilə bu suala cavab tapa bilər.

Zamanın karvanı və humanizm mədəniyyətinin bərqərar olması

Dünya çox səbirlidir. Öz qoynunda insanların istifadə etdiyi zorakılıq metodlarını uzun müddət çiynində daşıyıb. Quldarlıq dövründə məktəblərdə istifadə olunan zorakılıq metodları gözəgörünməz tellərlə feodalizm dövrünün məktəblərinə də daxil oldu. Hərçənd ki, bu dövrlərdə yaşayan mütəfəkkirlər məktəbdəki zorakılıq metodlarının əleyhinə mübarizə aparırdılar.

Din ideoloqları da bu fikri dəstəkləyirdilər. Elə buna görə də feodalizm dövründə teoloji baxışlar əsasında yeni məzmunlu məktəblər yarananda zorakılıq metodlarının tərbiyə prosesindən uzaqlaşdırılacağı üçün ümidlər yaranmışdı. Yeni məzmunlu dini məktəblər yaradıldı, amma zorakılıq metodlarını məktəblərdən uzaqlaşdırmaq mümkün olmadı. Sanki zaman "zorakılıq metodları adlı bir yükü" öz karvanına yükləmişdi, könülsüz-könülsüz daşıyırdı.

XIV əsrdə humanizm ideyaları bərqərar olmağa başladı. Platon ideyalarının cəmiyyət həyatına tətbiq edilməsi üçün fürsət yarandı. Dante Alqiyerinin, Françesko Petrarkonun, Vitterina de Feltrenin və b. əsərləri vasitəsilə antik pedaqoji irs fonunda humanizm mədəniyyəti cəmiyyət həyatına daxil olmağa başladı. İnsan yeni məzmunda qiymətləndirildi. Bu, yeni pedaqoji ideyaların natursentrik baxışlar çərçivəsində məktəb həyatına daxil olmasını şərtləndirirdi.

Y.A.Komenskinin, C.Lokkun, J.J.Russonun və b. əsərlərində insanın təbii imkanlarının və onların təhsil mühitində inkişaf qanunauyğunluqlarının sirləri açıldı. İnsan münasibətlərinin humanizm müstəvisində məktəb həyatına daxil olması uşağın inkişafının əsas yollarından biri kimi dəyərləndirildi. Məktəb öz inkişafını bu səmtdə qursa da, hələ böyük uğurlar əldə edilməmişdi. Sənaye inqilabı məktəbin yenidən qurulmasını tələb etməyə başladı. Bu dövrdə filosofların (İ.Kant, F.Hegel və b.), sosialist utopistlərin (K.A.Sen-Simon, Ş.Furye, R.Oyen və b.), klassik pedaqoqların (İ.Pestalotsi, İ.F.Herbart, F.Frebel, F.A.Disterverq və b.) əsərləri natursentrik ideyaları daha da inkişaf etdirdi.

İnsan yaradıcılığı nəhayətsizdir

XIX əsrin sonlarında, XX əsrin əvvəllərində insanın inkişafında antroposentrik baxışlar formalaşdı. Bu baxışlarda hər bir insan özünəməxsus yaradıcı şəxs kimi qiymətləndirildi, təhsil onun yaradıcılıq imkanlarını üzə çıxararaq inkişaf etdirən əsas yol kimi dəyərləndirildi. Aparılan çoxsaylı tədqiqatlar fonunda B.Blum taksonomiyası insan yaradıcılığının üzə çıxarılmasının metodologiyası kimi dəyərləndirildi. Karl Rocersin şəxsiyyətyönümlü təhsil baxışları yeni təlim konsepsiyaları ilə culğalaşdı. Şəxsiyyətlər arası münasibətlərin şagirdin koqnitiv və kreativ inkişafında mühüm rol oynadığı məlum oldu. İnsan yaradıcılığının nəhayətsiz imkanlara malik olması, müəllim-şagird münasibətlərinin humanizm mədəniyyəti çərçivəsində üzə çıxdığı öz təsbitini tapdı.

Şagirdlər nə istəyirlər?

H.C.Ayzenk deyirdi ki, biz atı su axurunun yanına gətirə bilərik, amma onu su içməyə məcbur edə bilmərik. Görəsən uşaqları necə, onların məşğul olmaq istəmədikləri bir işi görməyə məcbur edə bilərik? Bu sualın cavabı birmənalıdır, əlbəttə, yox. Amma əsrlər boyu bunu etmişik. Elə buna görə də dünyanın inkişaf tempi zəif olub. Humanist münasibətlər məktəb həyatına daxil olandan etibarən dünyanın inkişaf sürəti yüksəlib. Bu korrelyasiyanı aparmaq çətin deyil, hamı öz həyat təcrübəsinə əsasən bunu edə bilər. Məktəb bu gün humanist münasibətlər fövqündə inkişaf edir. Bu münasibətlərin formalaşmasında müəllimin rolu nəhayətsizdir. Qabaqcıl müəllimlər bu məsələyə xüsusi önəm verirlər. Bəs qabaqcıl müəllim hansı keyfiyyətlərə malik olmalıdır?

Hər birimiz təhsil alarkən subyektiv fikirlərimizdə bizə dərs deyən müəllimlərimizi qiymətləndirirdik. Müəllimin pedaqoji fəaliyyətini məktəb direktoru və digər rəsmi şəxslər də qiymətləndirirlər. Görəsən bu qiymətləndirmələrdən ən düzgünü hansıdır? Şagirdlərin qiymətləndirməsi qeyri-rəsmi məzmun kəsb etdiyi üçün onu daha obyektiv adlandırsaq səhv etmərik. Bir də belə bir arqumentə də diqqət etmək maraqlıdır: axı müəllim son nəticədə şagirdi öyrətmiş, inkişaf və tərbiyə etmiş olur. Başqa sözlə ifadə etsək, şagird bu prosesin iştirakçısı olur və o hansı müəllimin daha yaxşı öyrətdiyini öz təcrübəsi əsasında qiymətləndirə bilir.

Bizim mentalitetə görə, şagirdin müəllimi qiymətləndirməsi mənəvi dəyərlərdən kənar sayılır. Amma dünya məktəblərində şagirdlərin müəllimi qiymətləndirmə təcrübəsi mövcuddur. Görəsən şagirdlər müəllimləri qiymətləndirərkən onun hansı keyfiyyətlərinə üstünlük verirlər? Psixoloqlar bu suala cavab tapmaq üçün məktəblərdə maraqlı tədqiqatlar aparıblar. Onlardan ikisinə diqqət yetirək:

<u>I tədqiqat:</u> Şagirdlərə "Müəllimin səhvi" mövzusunda inşa yazmağı təklif ediblər. Şagirdlərin yazdığı inşada müəllimlərin səhvləri konkret faktlarla göstərilmişdi. Bu səhvlərin mütləq əksəriyyəti müəllimlərin şagirdlərlə qarşılıqlı münasibətinə həsr edilmişdir.

<u>II tədqiqat:</u> Həm məktəbin buraxılış sinif şagirdlərinə, həm pedaqoji institutun I kurs tələbələrinə, həm də müəllimlərə "ideal müəllimin keyfiyyətlərini" qeyd etmək xahiş edilmişdi. Əldə edilən nəticələrdən məlum olmuşdu ki, şagirdlər və tələbələr müəllimlərin insani keyfiyyətlərinə, müəllimlər isə işgüzar və peşə keyfiyyətlərə üstünlük verirlər. Göründüyü kimi, şagirdlər və müəllimlər eyni problemi prizmanın müxtəlif bucaqlarından dəyərləndirmişlər. Amma bir həqiqəti hər birimiz bilirik:

Şagird müəllimi sevəndə onun tədris etdiyi fənni də sevə-sevə öyrənir. Görəsən, şagird müəllimi nə vaxt sevir?

Şagirdi cəzalandıraq, yoxsa....

Təlim-tərbiyə prosesi yarananda etibarən müəllimlər şagirdlərlə münasibətlərin humanistləşdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini öz pedaqoji təcrübələrində yəqin ediblər, amma cəzalandırma metodundan imtina edilməyib.

Əsrlər bir-birini əvəz etdikcə, cəzaların şiddəti azalıb, amma aradan qalxmayıb. Hər birimiz öz təcrübəmizdən bilirik ki, insan cəzalanmağı xoşlamır. Bəs niyə təlim-tərbiyə prosesində biz cəzalandırmadan əl çəkmirik? Onu da bilirik ki, şagirdlər cəzalananda neqativ addımlara daha çox yol verirlər.

Şagirdin nöqsanlı hərəkətlərinə göz yummaq olmaz. Amma dərindən fikirləşərək, şagirdlərin nə vaxt nöqsanlı hərəkətlərə yol verməsinin səbəblərini axtaranda, səbəblər piramidasının ən yüksək zirvəsində valideynlərin və müəllimlərin şagirdə, yumşaq desək, "laqeyd" münasibətinin durduğunu yəqin edə bilərik. Şagird evdə də, məktəbdə də laqeydliklə rastlaşanda, danlaq içində "böyüyəndə", özünütəsdiq yolunu tapa bilməyəndə ağlasığmaz hərəkətlər edir. Bu hərəkətləri ilə o əhatə olunduğu münasibətlər sistemindən narazı olduğunu bildirir. Onun bu hərəkətlərinin səbəblərini axtarmadan, onu cəzalandırmağı davam edəndə... "Çətin" tərbiyəolunan uşağın və şagirdin yaranma səbəblərini burada axtarsaq, səhv etmərik. İstər evdə, istərsə də məktəbdə gözümüzün qarşısında fərd şəxsiyyət kimi inkişaf edir. Biz kobud münasibətlərlə onun şəxsiyyət kimi inkişafının qarşısına sədd çəkmiş oluruq. O bu münasibətlər fövqündə öz ağlının "qüdrəti" əsasında addım atmağa başlayır.

Son söz əvəzi

Həyat fəlsəfəsi təsdiq edir ki, uşağı və şagirdi tərbiyə etmək ona sevgi ilə yanaşmaqdan başlayır. Uşaqlar evdə valideynlərdən, şagirdlər məktəbdə müəllimlərdən daha çox humanist münasibətlər gözləyirlər. Amma bu gün istər valideynlər, istərsə də müəllimlər tərəfindən bullinq hadisəsinə təsadüf edirik. Düzdür, onların sayının azaldığını deyə bilirik, bu, yaxşı haldır, amma yox olduğunu deyə bilmirik. Uşağı və şagirdi məhəbbətlə tərbiyə etmək tələbkarlığı azalmaq anlamına gəlmir. Klassik pedaqoqlar tərbiyə tərəzilərinin bir gözünə "hörmət", digər gözünə "tələbkarlıq" prinsipini qoyublar. Onlar öz müdrik pedaqoji təcrübələrində kəşf ediblər ki, uşağı (şagirdi) sevə-sevə tərbiyə edəndə, öyrədəndə tərbiyə etməyin, öyrətməyin yeni-yeni yollarını tapmaq olur, bu zaman tərbiyə edən yaradıcı müəllim statusu əldə edir, fərd isə şəxsiyyət kimi inkişaf etməyə başlayır.



Hikmət ƏLİZADƏ,
Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, BDU-nun professoru

Sabahın mütəxəssisi bir universitet ixtisasına sığacaqmı?

Ülvi ASLANOV

Universitetdə müəyyən bir ixtisas üzrə hazırlanan mütəxəssislərdən iş həyatında getdikcə daha geniş bilik və bacarıqlar tələb olunur. Bunun əsas səbəblərindən biri süni intellektin (AI) yaratdığı imkanlardır. Artıq AI-nin köməyi ilə öz ixtisasımızdan kənar sahələri də araşdıra, müxtəlif tapşırıqları daha asan və sürətli yerinə yetirə bilirik. Bununla belə, insan yalnız oxuduğu sahəni dərindən bilməklə kifayətlənməməli, çatışmayan bilikləri müstəqil şəkildə qazanmağı və əldə etdiyi nəticələri yoxlamağı da bacarmalıdır. Sabahın mütəxəssisinin oxuduğu sahə üzrə konkret ixtisası olacaq, lakin gördüyü iş həmin ixtisasın bugünkü sərhədlərinə sığmayacaq.



Bu dəyişikliyi işəgötürən kimi öz təcrübəmdə də görürəm. Marketinq əməkdaşımız proqramçı ilə birlikdə sosial şəbəkələrdə müştərilərlə yazışan və müraciətləri toplayan AI agenti (öz-özünə işləyən süni intellekt operatoru) hazırlayıb. Maliyyə direktorumuz isə AI ilə maliyyə modellərini daha sürətlə hazırlayır. Beləliklə, əməkdaşlar öz əsas vəzifələrini yerinə yetirməklə yanaşı, texniki həllərin hazırlanması kimi əvvəllər başqa mütəxəssislərin gördüyü işlərə də qoşulurlar. Onlar gündəlik fəaliyyətlərini daha müstəqil təşkil etmək üçün digər sahələrin biliklərindən və təcrübəsindən yararlanırlar. Nəticədə vəzifənin adı, bəlkə də dəyişməyəcək, amma həmin vəzifə üçün tələb olunan bacarıqların dairəsi xeyli genişlənəcək. Təhsil bu dəyişikliyə uyğunlaşmadıqca universitetlə əmək bazarı arasındakı boşluq daha da böyüyəcək.

Bu prosesdə ixtisas üzrə qazanılmış təcrübənin əhəmiyyəti daha aydın görünür. Məsələn, maliyyə modelinin hansı fərziyyələrə əsaslandığını və yeni vakansiyaya namizəd seçərkən hansı meyarların nəzərə alınacağını məhz sahəni dərindən bilən mütəxəssis müəyyənləşdirə bilər. Təcrübə həm problemi düzgün müəyyənləşdirməyə, həm də əldə olunan nəticədəki çatışmazlıqları görməyə kömək edir. Süni intellektə tapşırıq verməzdən əvvəl hansı nəticənin keyfiyyətli və düzgün hesab olunduğunu bilmək vacibdir. Başqa sahələrdən əldə edilən biliklər bu peşəkar təcrübə ilə birləşdikdə mütəxəssisin fəaliyyət imkanları da genişlənir. Bu baxımdan, ixtisasartırma proqramları mövcud təcrübəni yeni sahələrdə tətbiq etmək üçün zəruri bilik və bacarıqları qazandırmalıdır. Universitetlər öz məzunlarını yalnız yeni texnologiyalara deyil, həm də artıq geniş təcrübəyə malik, müxtəlif sahələrin biliklərini birləşdirə bilən mütəxəssislərlə rəqabətə hazırlamalıdırlar.

Əmək bazarında bu inteqrasiya yeni vəzifə adlarında da özünü göstərir. Xarici şirkətlərdə "Creative Engineer" (kreativ mühəndis) kimi yeni peşə rolları üzrə vakansiyalara rast gəlmək mümkündür. Bu vəzifələrdə yaradıcı düşüncə, proqramlaşdırma və süni intellektlə işləmək bacarıqları birlikdə tələb olunur. Belə nümunələr məndə bir qənaət formalaşdırır: mühəndislik təfəkkürü bütün ixtisasların təməl bacarıqlarından birinə çevrilməlidir. Problemi hissələrə ayırmaq, uyğun həll yolu müəyyənləşdirmək və onu sınaqdan keçirmək hər bir sahədə vacibdir. Hətta hansı alətdən istifadə etməyin lazım olduğunu düzgün seçmək, işi lüzumsuz yerə mürəkkəbləşdirməmək də peşəkarlığın göstəricisidir.

> **İnsan yalnız oxuduğu sahəni dərindən bilməklə kifayətlənməməli, çatışmayan bilikləri müstəqil şəkildə qazanmağı və əldə etdiyi nəticələri yoxlamağı da bacarmalıdır**

İş yerlərində peşə rolları genişləndikcə süni intellektin köməyi ilə hazırlanmış, peşəkar görünən, lakin keyfiyyətsiz işlərin də artması mümkündür. Çünki AI zəif məzmunu belə zahirən mükəmməl təqdim edə bilir. Hesabat səliqəli görünə, rəqəmlər düzgün hesablana, amma müqayisənin əsası yanlış seçilə bilər. Belə səhvləri əvvəlki dövrlərlə müqayisədə dərhal aşkar etmək və anlamaq daha çətinləşir. Buna görə də karyerasına yeni başlayan əməkdaşların belə tapşırıqları təcrübəli mütəxəssislərlə birlikdə yerinə yetirməsini vacib sayıram. Təcrübəli həmkar yalnız nəticəni yoxlamamalı, həm də səhvin hansı mərhələdə və nə üçün yarandığını izah etməlidir. Əgər iş əməkdaşın əsas ixtisasından kənar bilik tələb edirsə, onun yoxlanılmasına həmin sahəni yaxşı bilən mütəxəssis də cəlb olunmalıdır.



Təhsil sahəsində bu yanaşmanın müəyyən nümunələri artıq mövcuddur. Biznes və idarəetmə ixtisasları üzrə proqramlarda süni intellekt vasitəsilə texnoloji həllərin hazırlanmasını öyrədən fənlərə də yer verilir. Məsələn, MIT Professional Education-da AI agentlərinin təşkilatlarda tətbiqinə həsr olunmuş fənn müxtəlif ixtisas proqramlarına daxil edilib. Yale Universitetinin "AI Foundations for Managers" (Menecerlər üçün süni intellektin əsasları) kursunda isə biznesin idarə edilməsi üzrə təhsil alan tələbələr süni intellekt əsaslı satış agenti və çatbotla təchiz edilmiş veb-sayt hazırlayıblar. Bu nümunələrdə tələbələr yalnız texnologiyanın imkanları ilə tanış olmur, həm də öyrəndiklərini tətbiq etmək üçün zəruri texnoloji həlləri hazırlamağı öyrənirlər.

Azərbaycanda da tədris proqramları yenilənərkən universitetlər və işəgötürənlər hər bir ixtisas üzrə dəyişən iş tapşırıqlarını birlikdə müəyyənləşdirməlidirlər. Mən hətta müəllimlərin şirkətlərdə ixtisasartırma və təcrübə proqramlarına cəlb olunmasını təklif edərdim. Onlar tədris etdikləri sahədə gündəlik iş proseslərinin necə dəyişdiyini bilavasitə müşahidə etməli, yeni texnologiyaların peşə fəaliyyətinə təsirini yaxından öyrənməlidirlər.

Eyni yanaşma tələbələrin təhsil prosesində də tətbiq oluna bilər. Məsələn, marketinq ixtisası üzrə təhsil alan tələbə məlumatları təhlil etməyi və təkrarlanan işləri avtomatlaşdırmağı, dizayn tələbəsi öz ideyasının işlək ilkin nümunəsini hazırlamağı, informasiya texnologiyaları tələbəsi isə yaratdığı sistemin hansı biznes problemini həll etdiyini araşdırmağı öyrənə bilər. Müxtəlif ixtisasların tələbələri ortaq tapşırıqlar üzərində işləməli, əldə olunan nəticələri isə hər biri öz sahəsinin meyarları əsasında qiymətləndirməlidir. Bu zaman tələbə yalnız öz ixtisasının biliklərini tətbiq etməyi deyil, başqa sahələrdən hansı biliklərə ehtiyac duyduğunu, onları haradan əldə edə biləcəyini və necə yoxlamalı olduğunu da öyrənəcək.

Tələbənin işini qiymətləndirən müəllim də, əməkdaşın hazırladığı nəticəni qəbul edən rəhbər də yalnız yekun məhsula deyil, həmin nəticəyə necə nail olunduğuna diqqət yetirməlidir. İşi təqdim edən şəxs hansı biliklər tətbiq etdiyini, seçdiyi metodun nə üçün uyğun olduğunu və sınaq zamanı hansı dəyişiklikləri etdiyini izah edə bilməlidir.

Nəticə etibarilə, müasir təhsilin məqsədi yalnız konkret ixtisas üzrə biliklərə malik məzun hazırlamaq olmamalıdır. Universitet insana öz sahəsində peşəkarlaşmaqla yanaşı, yeni biliklər qazanmaq, fərqli sahələrin imkanlarından yararlanmaq və əldə etdiyi nəticələri tənqidi qiymətləndirmək bacarığı da aşılamalıdır. Çünki gələcəyin mütəxəssisinin peşə imkanları diplomunda göstərilən ixtisasın bugünkü məzmunu ilə məhdudlaşmamalıdır.

DÖVLƏT PROQRAMI MƏZUNU



Xaricdə təhsil almaq insana yalnız yeni biliklər qazandırmır, həm də öz ölkəsini, tarixini və mədəniyyətini dünyaya tanıtmaq üçün imkanlar yaradır. London Universitet Kollecinin (UCL) 200 illik yubileyinə həsr olunmuş "Beyond the Book" foto sərgisində Azərbaycan müəlliminin tarix kitabı ilə təmsil olunmaq isə bu missiyanın maraqlı nümunələrindən biridir. Həmin sərgidə Azərbaycanı təmsil edən Elvin Alıyev, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində London Universitet Kollecində təhsil alıb, beynəlxalq akademik mühitdə ölkəmizin tanıdılması və Azərbaycan tələbələrinin birliyinin möhkəmləndirilməsi istiqamətində fəallıq göstərib. "Azərbaycan müəllimi"nə müsahibəsində E.Alıyev Britaniyada təhsil təcrübəsi, Dövlət Proqramının gənclərə yaratdığı imkanlar, xaricdə milli kimliyin və həmrəyliyin qorunması, eləcə də gələcək elmi və peşəkar hədəfləri barədə fikirlərini bölüşür.

Təhsildən milli missiyaya: bilik, təşəbbüs və Azərbaycan sevgisi

- Sizi necə tanıyaq?

- Mən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 2020-2024-cü illərdə "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasında təhsil almışam. Bu müddət ərzində hazırlaşıb xaricdə təhsil üzrə Dövlət Proqramına müraciət etdim və dünyanın top 10 universitetlərindən biri olan "University College London"da magistr təhsili almaq imkanı qazandım. 2024-2025-ci illərdə UCL-də "İctimai siyasət" ixtisasında təhsil aldım və həmin ildə ali məktəbi bitirərək Vətənə geri qayıtdım. Xaricdəki təhsil həyatım Azərbaycandakından tamamilə fərqli idi. Britaniya təhsil sistemində magistratura bir il olmaqla yanaşı, tələbələrin özünüinkişafı, təhsillərini tamamlaması və araşdırma aparmaları üçün bir çox fürsətlər verilirdi. Tələbələrə çox böyük sərbəstlik verməklə yanaşı, bunlardan yararlanmaq və dərsi mənimsəmə prosesi tamamilə tələbənin məsuliyyətindən asılı idi.

"Dövlət Proqramı biz gənclər üçün yaradılmış çox gözəl bir fürsətdir"

- DP-nin həyatınızda rolu, gənclər üçün əhəmiyyəti, hədəflərinizə çatmaqda rolu barədə nə deyərdiniz?

- Dövlət Proqramı ilə tanışlığım sevimli tarix müəllimim Elmir Nəsirov sayəsində oldu. O, mənə xaricdə təhsilimi davam etdirmək üçün güclü potensialımın olduğunu dedi və mən bu barədə araşdırma apararaq Dövlət Proqramı ilə tanış oldum. Xaricdə təhsil üzrə Dövlət Proqramı biz gənclər üçün yaradılmış çox gözəl bir fürsətdir. Dövlət proqramı bilikli və bacarıqlı tələbələrin önə çəkilməsinə və onların Azərbaycanın gələcək inkişafında mühüm rol oynayacaq potensiala çevrilməsi hədəfinə xidmət edir.

Dövlət Proqramı mənə dünyanın top 10 universitetində oxuma imkanı yaratdı. Eyni zamanda akademik biliyimi artırmaqla yanaşı, ömürlük dostluqlar qurmağa, digər ölkələrin və millətlərin təcrübələri ilə yaxından tanış olmağa və xaricdə yaşayan diasporumuzu tanımağa da fürsət qazandırdı.

"Fərqli bir təhsil sistemi ilə rastlaşdım"

- Böyük Britaniyada təhsil sizə hansı səriştə və biliklər qazandırdı?

- Britaniyada bir sıra ən müasir idarəçilik təcrübələrini və metodologiyalarını dünyaca məşhur ekspertlərdən öyrənmək imkanı qazandım. Buradan əldə etdiyim ən önəmli bacarıqlara dərin elmi araşdırmalar aparmaq, məqalələr yazmaq, müqayisəli və tarixi təhlillər etmək, komanda işi və s. sadalaya bilərəm. Britaniyada formal təhsilimlə paralel olaraq ziyarət etdiyim muzey və şəhərlər mənə dünyagörüşümü genişləndirməyə, elmin cəmiyyətdə və dövlət idarəçiliyində rolunu dərk etməyimə, davamlı inkişafın təzahürlərini müşahidə etməyə və tolerantlığın əhəmiyyətinə varmağa misilsiz töhfələri oldu.

"Donald Trampın kosmos siyasəti haqqında magistr dissertasiyamı yazdım"

- Britaniya təhsilində hansı yenilikləri və innovasiyaları qeyd edə bilərsiniz?

- İlk olaraq, Britaniyada magistr təhsili dünyanın digər ölkələrindən fərqli olaraq bir ili əhatə edir və yay ayları dissertasiya yazılmasına həsr olunur. Oxuduğum universitetdə bizim qrupda təxminən 90 nəfər var idi ki, bir sıra mühazirələrdə digər qruplarla birlikdə olanda sayımız daha da artırdı. Seminarlarda isə həmin tələbələr 15-20 nəfərlik qruplara bölünərək bir neçə müəllimə təhkim olunurdu. Mühazirələrdən və seminarlardan əvvəl bütün mənbələr universitetin internet səhifəsinə yerləşdirilir və tələbədən dərsə gəlmədən öncə mövzu haqqında müəyyən anlayışının olması və onunla bağlı diskussiyalarda iştirakı gözlənilirdi. Seminarlarda biz ya təqdimat hazırlayır, ya da hansısa bir məqaləni müzakirə edirdik.

Bir çox fənn üzrə (əsasən biz seçə bilirdik) bütün qiymətləndirmə son imtahanın nəticəsinə əsasən müəyyənləşdirilirdi. İmtahan daha çox maksimum 2500-3000 sözlük məqalələr yazıb göndərmək şəklində olurdu.

Son olaraq xüsusilə bizim ixtisasda bizə ya dissertasiya yazmaq, ya da Britaniya hökumətinə qanun layihəsi göndərmək seçimi verilirdi. Mən dissertasiyanı seçdim və elmi rəhbərimlə 4 dəfə görüşərək Donald Trampın kosmos siyasəti (astrosiyasət) haqqında magistr dissertasiyamı yazdım.

"Komandamız UCL-də "Breyn-rinq"in qalibi oldu"

- London Universitet Kollecində təhsil dövründə hansı uğurlarınızdan bəhs edərdiniz? Ali məktəbdə Azərbaycan gənclərinin şəbəkələşməsi nə vəziyyətdədir?

- UCL-də təhsilim zamanı bizim ixtisasda mənimlə bərabər 6 azərbaycanlı tələbə var idi ki, hamısı da Dövlət Proqramı vasitəsilə gəlmişdi. Onlarla ilk görüşdən etibarən çox möhkəm bir dostluq qurduq və daha sonra digər ixtisaslardan olan tələbələrlə tanış olduqca əlaqələrimiz daha da genişləndi. Bu dövrdə qazandığımız bir çox uğuru məhz bir-birimizi dəstəkləyərək nail olduq. İlk uğurumuz universitetin çap etdiyi resept kitabında Azərbaycan bayrağının tərs şəkildə təsvirini şikayət edərək səhvlərinin düzəltdirilməsinə nail olmağımızdır. Daha sonra Azərbaycan cəmiyyəti olaraq biz universitetin Novruz tədbirində özümüzlə gətirdiyimiz suvenir və kitablarla ölkəmizi uğurla təmsil etdik. Daha sonra Diasporla İş üzrə Dövlət Komitəsi ilə bərabər təşkil edilən "Breyn-rinq" oyununda qatıldığım Ay-ulduz komandası həmin viktorinanın qalibi oldu.

Azərbaycan tarixi kitabı UCL-in 200 illiyində

- Universitetin 200 illiyinə həsr olunmuş "Beyond the Book" foto sərgisində iştirakınız barədə nə deyərdiniz?

- Layihə barədə universitetin tələbə cəmiyyətinin göndərdiyi bir e-mail vasitəsilə xəbərdar oldum və həmin anda qeydiyyatdan keçdim. Bu sərginin mahiyyəti ondan ibarətdir ki, UCL-in 200 illiyində tələbə cəmiyyətlərinin nümayəndələrinin, tələbələrin fotoları, onların təmsil etdiyi kitabxanalar haqqında təəssüratları ilə birlikdə əvvəlcə vebsaytda, daha sonra (16-19 noyabrda) fotosərgidə nümayiş edilir. Burada Azərbaycan cəmiyyətinin təmsilçisi kimi müraciət etdim və John Iona tərəfindən bir neçə fotoşəklim çəkildi. Fotoda görmüş olduğunuz kitab, mənə xaricdə təhsilimi davam etdirməyə ilham verən müəllimim Elmir Nəsirovun tarix kitabıdır. Fotom hazırda həm vebsaytda, həm də universitetin "School of Slavonic and East European Studies" (Slavyan və Şərqi Avropa Araşdırmaları Məktəbi) kitabxanasında nümayiş etdirilir. Bu kitabxananı seçməyimin səbəbi, həmin kitabxanada Azərbaycan haqqında materialların çox az olması və bu vasitə ilə ölkəmizə olan marağı artıraraq yeni mənbələr cəlb etmək idi.

"Hazırda Azərbaycan cəmiyyəti daha da genişlənərək aktivliyini bərpa edib"

- UCL Azərbaycan Cəmiyyətinin fəaliyyəti barədə nə deyərdiniz? Gənclərimizin cəmiyyətin tədbirlərində iştirakı və fəallığı necədir?

- Bizim təhsil aldığımız illərdə, təəssüf ki, Azərbaycan tələbə cəmiyyəti uzun müddət fəaliyyət göstərmirdi. Tələbə cəmiyyətlərinə seçkilərin keçirildiyi vaxt bununla maraqlandım və onun bağlanma təhlükəsini öyrəndikdə bunu digər azərbaycanlı tələbə dostlarımla bölüşdüm. Bir yerdə qərara gəldik və aramızda ən cavan dostumuz Murad Abdulkərimi bizdən sonra da qrupun aktivliyini qorusun deyə seçdik. İlk vaxtlarda görüşlərimizin çoxu səfirlik və digər tələbə cəmiyyətləri ilə bərabər keçirilsə də, hazırda Azərbaycan cəmiyyəti daha da genişlənərək aktivliyini bərpa edib. "Beyond the book" layihəsində də qeyd etdiyim kimi, bu, bizə ölkəmizə olan borcumuzu ödəməklə yanaşı, əlaqələrimizi möhkəmləndirmək və birgə işləmək üçün böyük bir şans idi. Və biz bunu birlikdə etdik.

- Gələcək hədəfləriniz barədə nə deyərdiniz?

- Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Davamlı inkişafda insan potensialı və yüksək idarəetmə standartları" ixtisasında ikinci magistr təhsilimi davam etdirirəm. Bununla yanaşı, "Evrim Ağacı" Azərbaycan elmi-kütləvi platformasında boş vaxtlarımda maraqlandığım elmi mövzularda çıxışlar və diskussiyalar da təşkil edirəm.

Təhsilimi bitirdikdən sonra əsas məqsədim topladığım bilik və təcrübələri dövlət idarəçiliyində, xüsusi olaraq arzuladığım qurum olan Elm və Təhsil Nazirliyinin müvafiq təşkilatlarında tətbiq edərək daha çox elm siyasətimizi inkişaf etdirmək, Britaniya nümunəsində təbiət tarixi muzeylərinin açılmasında rol oynayaraq həm elmin populyarlaşdırılmasında, həm də ölkəmizin təbii sərvətlərinin qorunmasına töhfə verməkdir.

Oruc MUSTAFAYEV

Lənkəran Dövlət Universitetinin (LDU) Aqrar və mühəndislik fakültəsinin tələbələri yetişdirdikləri 1,5 tona yaxın sitrus meyvəsini Bakı və Bakıətrafı rayonlarda yerləşən uşaq evi sosial xidmət müəssisələrinə göndəriblər.

LDU tələbələri uşaq evlərinə 1,5 ton sitrus payı göndəriblər



Sovqat üçün nəzərdə tutulan meyvələr universitetin 2,7 hektarlıq aqrar tədris-təcrübə bazasında aqrar ixtisaslar üzrə təhsil alan tələbələr tərəfindən yetişdirilib.

Artıq 3 ildir davam edən bu xeyriyyə təşəbbüsü tələbələrdə sosial məsuliyyət hissinin formalaşdırılmasına, paylaşmaq və qayğı göstərmək dəyərlərinin təşviqinə xidmət edir.

Sosial xidmət müəssisələri tərəfindən göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə və tələbələrə minnətdarlıq ifadə olunub.

Qeyd edək ki, bu, LDU tələbələrinin uşaqlara ünvanladığı növbəti sitrus sovqatıdır. Daha əvvəl də uşaq evi sosial xidmət müəssisələrinə 1 tondan artıq sitrus meyvəsi göndərilib.

“AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

Baş redaktor
Sarvan İbrahimov

Reklam və elanlar: Mob.: (010) 253-30-86; elan@media.edu.az

Ünvan: AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

Bank hesabımız
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

Lisenziya: № 022327 **İndeks:** 1052

Tiraj: 34463 **Sifariş:** 1539

Məsul növbətçi: O.Mustafayev

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıda adıçəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə

ELAN EDİR:

Musiqili teatr aktyoru – Kafedra müdiri 1 yer

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

Ünvan: Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
Telefon: 599-00-54 (daxili-100)

REKTORLUQ

Etibarsız sayılır

Bakı şəhər 201 nömrəli tam orta ümumtəhsil məktəbi 2011-ci ildə bitirmiş Mehdizadə Arzu Qoşqar qızına verilmiş A-056166 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 91 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Bəxtiyarov Amirxan Natiq oğluna (Rəsulov Orxan Xalid oğlu) verilmiş E-355701 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Masallı rayon İkinci Yeddioymaq kənd tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Şükürova Şamama İlkin qızına verilmiş F-142567 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Goranboy rayon Qızılhacılı qəsəbə 1 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Hüseynova Mənsurə Qədir qızına verilmiş A-230142 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Beyləqan şəhər 5 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Atakişiyev Rəhman Əlikişi oğluna verilmiş C-641347 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

2 nömrəli Bakı Peşə Liseyi tərəfindən 2010-cu ildə Nurməmmədli Arzuman Kamal oğluna verilmiş A-038280 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Saatlı rayon Fətəlikənd kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Əsədova Aytəkin Məmmədağa qızına verilmiş A-619784 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Saatlı rayon Qara Nuru kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Əliyev Yaşar Abbasəli oğluna verilmiş A-715077 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Quba rayon Bağbanlı qəsəbə tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Daşdi Siruz Mirfiruz oğluna verilmiş A-104091 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Ağdaş şəhər 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Zakirov Elcan Elşən oğluna verilmiş C-518443 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Kərimov Çingiz İdris oğluna verilmiş A-538329 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Nayibov Naim Nurməmməd oğluna verilmiş A-431599 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər 12 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Şıxıyeva (Talibova) Xəyalə Zabit qızına verilmiş B-250053 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Sumqayıt şəhər 25 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Mehrəliyev Kənan Qəhrəman oğluna verilmiş B-270213 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər 4 nömrəli xarici dil təmayüllü məktəb-liseyi (4 nömrəli orta məktəb) 1991-ci ildə bitirmiş İbrahimova Lalə Rafiq qızına verilmiş 016615 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Xaçmaz rayon Müşkür kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Tahirova Elnarə Polad qızına verilmiş B-398593 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 167 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Qasımzadə Murad Səttar oğluna verilmiş E-003981 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Masallı şəhər 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Həsənova Səbinə Məmi qızına verilmiş B-225651 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Şəki rayon Baş Göynük kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Rəsulov Pərvin Nəzir oğluna verilmiş C-089464 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Ucar şəhər 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Bayramova Gülnaz Məcid qızına verilmiş A-571790 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Lerik rayon Blaband kənd tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Ağayeva (Nəcəfova) Nilufər Yaşar qızına verilmiş A-572222 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən 2023-cü ildə Əliyev Sənan İlqar oğluna verilmiş C-192187 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Qərb Universiteti tərəfindən 2003-cü ildə Məmmədova Yekaterina İqorevnaya verilmiş A-130981 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Milli Aviasiya Akademiyası tərəfindən 2016-cı ildə Məmmədov İlqar İlham oğluna verilmiş A-106393 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər Gültəkin Əsgərova adına məktəb-lisey kompleksi 2007-ci ildə bitirmiş Quliyev Elvin Səfizi oğluna verilmiş B-365656 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Beynəlxalq Universiteti tərəfindən 2009-cu ildə Şahbazova Dilarə Elgiz qızına verilmiş BB-I-010750 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Tibb Universiteti tərəfindən 2009-cu ildə Şahbazova Dilarə Elgiz qızına verilmiş 0209 nömrəli internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Astara şəhər 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Əhmədov Əmir Bəhlul oğluna verilmiş B-073138 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 270 nömrəli tam orta ümumtəhsil məktəbi 2013-cü ildə bitirmiş Hüseynov Süleyman Sədi oğluna verilmiş A-201852 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 223 nömrəli tam orta məktəbin VIII sinfini 1984-cü ildə bitirmiş Cəbrayılova Maya Cəbrayıl qızına verilmiş 768231 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Kimya və biologiya təmayüllü Respublika liseyini 2000-ci ildə bitirmiş İbrahimova Günay Kamil qızına verilmiş A-413738 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 297 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Həsənli Fərid Şahin oğluna verilmiş E-563601 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Zaqatala şəhər 1 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Səfərov Ümüd Sabir oğluna verilmiş E-052547 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Astara rayon Şahağacı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Həsənova Kamalə Sabir qızına verilmiş 639529 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Oğuz rayon Çaldaş kənd (keçmiş Astraxanovka) tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Kərimova Xalidə İsmayıl qızına verilmiş A-069135 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Cəlilabad şəhər 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Babayeva (Güləliyeva) Fidan Sənan qızına verilmiş 107955 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 117 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Rəhimova (Xurşudova) Həliməxatun Vaqif qızına verilmiş 0083 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

Bakı Mühəndislik Universiteti tərəfindən 2022-ci ildə Bəxtiyarov Elvin Elçin oğluna verilmiş C-132140 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Tibb Universitetini 2003-cü ildə bitirmiş Rakuşina Yelena Nikolayevnaya 2009-cu ildə verilmiş BB-I-002877 nömrəli dublikat diplom itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 257 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Həsənova Günel Bəhlul qızına verilmiş A-701023 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 48 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Əliyev Əli Nizaməddin oğluna verilmiş C-157962 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universiteti tərəfindən 2019-cu ildə Soltanova Fidan Şahin qızına verilmiş C-049279 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 158 nömrəli tam orta ümumtəhsil məktəbi 1996-cı ildə bitirmiş Məmmədov Yusif Azad oğluna verilmiş A-107681 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Zaqatala şəhər 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2022-ci ildə bitirmiş Nərimanova Nazənin Nəriman qızına verilmiş E-514059 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 271 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Kazımova Leyla Zaur qızına verilmiş C-171069 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər 236 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Şirbidova Aksana Elmar qızına verilmiş A-623631 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Sumqayıt şəhər 13 nömrəli tam orta ümumtəhsil məktəbi 2019-cu ildə bitirmiş Dadaşov Asif Namik oğluna verilmiş E-228365 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı Dənizçilik Məktəbi (indiki Azərbaycan Dövlət Dəniz Akademiyası) tərəfindən 1992-ci ildə Əmirbəyov Nail Şirin oğluna verilmiş LT-763234 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Yevlax şəhər 5 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Çələbi İlhamə Tahir qızına verilmiş 084708 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Yevlax şəhər 8 nömrəli tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Paşayev Pərviz Fəxrəddin oğluna verilmiş A-375702 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Füzuli rayon Araz Dilağarda kənd tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Zeynallı Fərid Niyaməddin oğluna verilmiş E-403060 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Göygöl şəhər 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Kərimova Məlahət Bəxtiyar qızına verilmiş B-055645 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Lənkəran şəhər 4 nömrəli humanitar təmayüllü məktəb-liseyi 2021-ci ildə bitirmiş Rzazadə Valeh İlham oğluna verilmiş E-395920 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Cəbrayıl rayon Soltanlı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Dadaşlı Türkanə Qurban qızına verilmiş A-609817 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayon Birinci Aşıqlı kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Qasımlı Qasım Əvəz oğluna verilmiş A-174772 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Yardımlı rayon Yolocaq kənd tam orta ümumtəhsil məktəbi 1986-cı ildə bitirmiş Rəhmanov Söhbət Səməd oğluna verilmiş 242762 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.